Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 245 (7972) ÇƏRŞƏNBƏ, 31 oktyabr 2018-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az | Qiyməti 40 qəpik





# Vətənə, xalqa sədaqət andının təntənəsi

## İlham Əliyevin Prezident səlahiyyətlərinin icrasına başlamasından 15 il ötür

**Müdrik və qədirbilən xalqımızın cənab İlham Əliyevin şəxsiyyətinə və siyasi liderlik keyfiyyətlərinə dərin inamı ilk dəfə 2003-cü ilin prezident seçkilərində öz təntənəsini yaşadı. Həmin vaxt xalqın mütləq əksəriyyətinin etimadını qazanaraq Azərbaycan Prezidenti seçilən İlham Əliyev oktyabrın 31-də vətənə və xalqa sədaqət andı içdi. Bununla da müstəqil Azərbaycan dövlətçiliyinin tarixində gənc və qətiyyətli bir Prezidentlə yeni dövr başladı.**

Bu gün Prezident İlham Əliyevin ilk dəfə dövlət başçısı kimi and içməsindən 15 il ötür. Cənab İlham Əliyevin oktyabrın 31-də keçirilmiş andiçmə mərasimində "Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün ən başlıcası ölkədə Heydər Əliyevin siyasəti davam etdirilməlidir. Bu gün yüksək kürsüdən çıxış edərkən mən Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalacağam, heç vaxt bu yoldan dönməyəcəyəm" deməsi onun ulu öndər Heydər Əliyevin zəngin dövlətçilik irsinə necə sadiq olduğunu bir daha nümayiş etdirirdi. Həmin mərasimdə dövlət başçısı Azərbaycanın mövcud vəziyyətini və gələcək inkişaf perspektivlərini dəqiq xarakterizə etməklə yanaşı, növbəti illər üçün özünün əsas fəaliyyət prioritetlərini açıqlamışdı: güclü dövlət, sabitliyə təminat, hər kəs üçün sosial rifah!

Ötən 15 ildə Azərbaycanda çox dəyişikliklər baş verib: ölkəmiz hərtərəfli inkişaf edib, beynəlxalq nüfuzu yüksəlib, regionun lider dövlətinə çevrilib. Təbii ki, Azərbaycan Prezidentinin 15 illik tərəqqi və inkişaf strategiyasının əsas məramlarından biri də xalqın, əhalinin sosial rifah halının durmadan yaxşılaşdırılması, Azərbaycanda sosial rifah dövlətinin qurulmasıdır.

### Heydər Əliyevin müəyyən etdiyi mütərəqqi yol

Sosial siyasət çoxcəhətli prosesdir, o mürəkkəb struktura malikdir. Bu siyasətin hər hansı bir göstəricisini əsas götürərək bütövlükdə cəmiyyətin ümumi inkişafı haqqında fikir yürütmək olar. Bu mənada sosial siyasətin başlıca məqsədi yoxsulluğun və sosial təzadların olmadığı, yüksək həyat səviyyəsinə malik olan, sosial ziddiyyətlərin kəskin münaqişələrsiz həll edildiyi bir cəmiyyəti formalaşdırmaqdan, insanlarda fəal həyat mövqeyi yaratmaqdan, maddi imkanlardan səmərəli istifadə etməyi öyrətməkdən, cəmiyyətin əmək qabiliyyətli hər bir üzvünün həyat səviyyəsinin onun öz səylərindən asılı olduğunu dərk etdirməkdən ibarətdir.

Təqdirəlayiq və kifayət qədər sevindirici haldır ki, ikinci dəfə dövlət müstəqilliyini əldə etməsindən cəmi 27 il keçməsinə rəğmən, iqtisadi sahədə keçid dövrünü uğurla başa vuran Azərbaycan sosialyönümlü bazar iqtisadiyyatı formalaşması sahəsində böyük müvəffəqiyyətlər əldə edib, ölkəmizdə əhalinin bütün təbəqələrinin həyat səviyyəsinin yaxşılaşdırılması məqsədilə mümkün zəruri tədbirlər reallaşdırılıb. Belə bir möhtəşəm nailiyyətin əldə olunmasında əsas faktorlardan biri də lider amili ilə əlaqədar olub. Azərbaycanın bugünkü mütərəqqi sosial siyasətinin banisi ulu öndər Heydər Əliyevdir.

Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə gəlişinədək Azərbaycanda populist, heç bir iqtisadi qanunlara cavab verməyən sosial siyasət mövcud idi. Bu siyasət ayrı-ayrı sosial stratlara ünvansız, ehtiyaclarını dəqiqliklə qiymətləndirmədən pensiyaların, güzəşt və imtiyazların verilməsini nəzərdə tuturdu. O dövrdə Azərbaycan dövlətinin keçirdiyi ağır iqtisadi böhran sosial siyasətdə sürətli dəyişikliklərin edilməsinə imkan vermirdi. Lakin doxsanıncı illərin ortalarından etibarən ümummilli lider Heydər Əliyevin gərgin səyləri nəticəsində Azərbaycanda mövcud olan ictimai-siyasi durum normal məcraya düşdü və iqtisadiyyatda irəliləyiş meyilləri yarandı. Bunun nəticəsi kimi isə ölkədə sosial sistemin köklü surətdə yenilənməsi və daha doğrusu, yeni milli modelin yaradılması məsələsi gündəmə gəldi. Yeni iqtisadi sistemə keçid zamanı Azərbaycanın hansı modeldən faydalanmasına dair müxtəlif fikirlər irəli sürülsə də, Heydər Əliyev bazar münasibətləri əsasında formalaşan sosialyönümlü milli iqtisadiyyatın qurulmasını əsas strategiya kimi müəyyənləşdirərək Azərbaycan xalqının sosial rifahının artırılmasını fəaliyyətinin başlıca məqsədlərindən biri elan etdi.

Yeni model bu və ya digər spesifik cəhətlərlə yanaşı sosial sferada yüksək nəticələr əldə etmiş qabaqcıl ölkələrin ən son təcrübəsini də özündə birləşdirməliydi. Təbii ki, o dönəmdə bu sahədə ən kiçik addımların da atılması heç də asan deyildi. Lakin bu sahədə təkmil islahatların müəllifi olan ulu öndər Heydər Əliyev inanırdı ki, zaman ötəcək və biz ən irimiqyaslı sosial layihələri gerçəkləşdirmək iqtidarında olacağıq.

*Ardı 5-ci səh.*

# İsveçrə turizm sahəsində Azərbaycanla əməkdaşlığı genişləndirmək niyyətindədir



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 30-da İsveçrə Konfederasiyasının təhsil, araşdırma və innovasiya üzrə dövlət katibi Mauro Dell'Ambrogionu qəbul edib.**

AZƏRTAC xəbər verir ki, dövlət başçısı ölkələrimiz arasında əməkdaşlığın yeni sahələri əhatə etməsindən məmnunluğunu bildirərək qeyd etdi ki, əgər əvvəllər iqtisadi əlaqələr enerji, investisiya, tikinti materialları sahələrində inkişaf edirdisə, hazırda tərəflər əməkdaşlıq istiqamətlərinin şaxələndirilməsində maraqlıdırlar.

İsveçrə Konfederasiyasının federal müşaviri, İqtisadi Məsələlər, Təhsil və Tədqiqatlar üzrə Federal Departamentin rəhbəri Yohan N.Şnayder-Ammanın ölkəmizə builki səfərinin uğurla keçdiyini vurğulayan Prezident İlham Əliyev Mauro Dell'Ambrogionun Azərbaycana bu səfərinin də əlaqələrimizin inkişaf etdirilməsi işinə xidmət edəcəyinə əminliyini ifadə etdi. Təhsil, innovasiya istiqamətlərinin ölkəmiz üçün prioritet təşkil etdiyini deyən Prezident İlham Əliyev bu baxımdan Şəki şəhərində Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sayca 15-ci mərkəzinin açılışında iştirak etməsini məmnunluqla qeyd etdi.

İsveçrənin texnologiyalar sahəsində çox yaxşı təcrübə qazandığını vurğulayan Prezident İlham Əliyev bu sahədə də əlaqələrimizin inkişafı üçün yaxşı imkanların olduğunu dedi.

İsveçrə Konfederasiyasının təhsil, araşdırma və innovasiya üzrə dövlət katibi Mauro Dell'Ambrogio ölkəmizdə keçirdiyi görüşlər barədə dövlət başçısına məlumat verərək Təhsil Nazirliyində ölkələrimiz arasında təhsil sahəsində əməkdaşlığa dair saziş imzaladıqlarını və ADA Universitetində olduqlarını məmnunluqla qeyd etdi. O, bu səfəri çərçivəsində Azərbaycan-Fransız Universitetində (UFAZ) mühazirəsi zamanı da elm və təhsil sahələrinin inkişafının və bu sahədə əməkdaşlığın önəmi barədə danışdığını dedi. Turizm sahəsində əməkdaşlığa toxunan Mauro Dell'Ambrogio İsveçrə Turizm Təşkilatı ilə Azərbaycan Turizm Agentliyi arasında imzalanan sazişin mühüm əhəmiyyət daşıdığını vurğuladı, bu sahədə əməkdaşlığın genişləndirilməsində ölkələrimiz arasında birbaşa aviareyslərin açılmasının önəmini qeyd etdi.

Görüşdə iqtisadiyyat, turizm, təhsil, o cümlədən peşə təhsili sahələrində əməkdaşlıq imkanları barədə fikir mübadiləsi aparıldı.

# Braziliya Federativ Respublikasının yeni seçilmiş Prezidenti zati-aliləri cənab Jair Bolsonaruya

Hörmətli cənab Bolsonaru,

Braziliya Federativ Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi səmimi qəlbdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Braziliya arasındakı dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Braziliya xalqının rifahı naminə qarşıdakı məsul fəaliyyətinizdə uğurlar diləyirəm.

Hörmətlə,

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 oktyabr 2018-ci il*

# Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 1 iyul tarixli 463 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Hüquqi aktların Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi qaydaları haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 16 fevral tarixli 384 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 18 iyul tarixli 216 nömrəli Fərmanına uyğun olaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 1 iyul tarixli 463 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 7, maddə 626; 2017, № 2, maddə 170) ilə təsdiq edilmiş "Hüquqi aktların Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi qaydaları haqqında Əsasnamə"nin 5.2-ci bəndində "və Azərbaycan Respublikası Maliyyə Bazarlarına Nəzarət Palatasının" sözləri ", Azərbaycan Respublikası Maliyyə Bazarlarına Nəzarət Palatasının və Azərbaycan Respublikası Maliyyə Monitorinqi Xidmətinin" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 oktyabr 2018-ci il*

# Bizim ordumuz bizim qürurumuzdur



**Oktyabrın 30-da Naxçıvan Qarnizonu qoşunlarının xüsusi təyinatlı birləşmə və hissələrinin birgə taktiki-xüsusi təlimi keçirilib.**

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov və Azərbaycan Respublikasının müdafiə naziri, general-polkovnik Zakir Həsənov hərbi təlimi izləyiblər.

Naxçıvan Əlahiddə Ümumqoşun Ordusunun komandanı, general-leytenant Kərəm Mustafayev Ali Məclisin Sədrinə hazırlıq barədə raport verib.

Sonra təlimin mövzusu, məqsədi və mərhələləri barədə məlumat verilib. Qeyd olunub ki, təlimin keçirilməsində məqsəd Naxçıvan Qarnizonunun güc strukturlarının idarəetmə orqanlarının xüsusi əməliyyatların planlaşdırılmasında uzlaşmış fəaliyyətinə nail olmaqdan, birləşmə və hissələrin idarəetmə və əməliyyat heyətinin əməliyyatların planlaşdırılması, idarə edilməsi və təşkili üzrə bilik və bacarıqlarını təkmilləşdirməkdən, eləcə də müdafiə zamanı düşmənin kəşfiyyat-diversiya orqanlarının aşkar, təcrid və məhv edilməsindən ibarətdir.

Ali Məclisin Sədri yeni hərbi təyinatlı cihazlara baxıb.

Məlumat verilib ki, Silahlı Qüvvələrin Hərbi Akademiyası və Azərbaycan Milli Elmlər Akademiyasının birgə hazırladıqları "İldırım RP-10" radiopartladıcı və "Sərhəd Sipər Sistemi" yüksək texniki göstəricilərə malikdirlər. "İldırım RP-10" radiokanal sistemi mürəkkəb relyefi olan ərazidə 3500 metr məsafədə, birbaşa görüntülü ərazidə isə 5 min metr məsafədə döyüş tapşırığını yerinə yetirir. "Sərhəd Sipər Sistemi" isə 1 kilometr məsafədə mühəndis çəpərinə quraşdırılır və radiosiqnallar vasitəsilə xəbərdaredici maneələr zolağı yaradır. Dövlət sərhədinə hər hansı müdaxilə olduğu zaman sistem onun yerini müəyyənləşdirir və mərkəzə məlumat ötürür.

Sonra komanda verilib və təlim başlayıb.

Təlimdə Əlahiddə Ümumqoşun Ordusunun xüsusi təyinatlı birləşmə və hissələrinin, "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının, Daxili Qoşunların "Naxçıvan" Əlahiddə Əməliyyat Briqadasının, Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin, Naxçıvan Muxtar Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin xüsusi təyinatlı bölmələrinin ümumilikdə mindən artıq şəxsi heyəti, 80-ə yaxın zirehli və avtomobil texnikası, 20-dən artıq hava hücumundan müdafiə vasitələri, 40-a yaxın artilleriya qurğusu, 10-dan çox aviasiya texnikası və pilotsuz uçuş aparatları iştirak edib.

Təlimdə düşmənin genişmiqyaslı hücum əməliyyatının və diversiya-təxribat fəaliyyətlərinin qarşısının alınması üçün şərti olaraq müxtəlif döyüş tapşırıqları yerinə yetirilib. Düşmən birinci eşelon birləşmələrinin güclü müqavimətinə rast gələrək hücumu dayandırmağa məcbur olub. Əlahiddə Ümumqoşun Ordusunun xüsusi təyinatlı bölmələri Naxçıvan Qarnizonunun digər güc strukturlarının bölmələri ilə qarşılıqlı əlaqədə əks-zərbə endirib, düşmən müdafiəsinin yaxın dərinliyindəki dağ aşırımlarını, təminat və təxliyə yollarını tutub, mühüm obyektlərini məhv edib, döyüş texnikasını ələ keçirib.

Düşmənin diversiya-təxribat qrupunun zərərsizləşdirilməsi məqsədi ilə fəaliyyətə başlayan Naxçıvan Muxtar Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin xüsusi təyinatlıları təxribatçıları zərərsizləşdirərək tam tərkibdə ələ keçiriblər.

*Ardı 4-cü səh.*

# Yeni müəssisələr, yollar, xidmət obyektləri...

## Onlar təkcə Qax və Şəkidə deyil, bütün ölkədə aqrar sahənin inkişafına xidmət edəcək

**Prezident İlham Əliyevin Qax və Şəki rayonlarına növbəti səfəri də bu bölgələrin zəhmətkeş insanları ilə səmimi görüşlərlə, yeni istehsal təyinatlı və sosialyönümlü obyektlərin açılışı ilə əlamətdar oldu. Qaxdakı "Ulu Aqro" MMC-nin açılışı ilə ölkədə yaradılan aqroparkların biri də artdı.**

Qax Damazlıq İpəkçilik Stansiyasının yenidən qurulması isə ümumən respublikada ipəkçiliyin inkişafına sanballı töhfədir. Hər iki rayonda istifadəyə verilən digər istehsalat sahələri, reallaşan sosial infrastruktur layihələri iqtisadi inkişafa, əhalinin rifahına xidmət edir.

Ölkədə 45 aqroparkın yaradılması nəzərdə tutulur. Bu ilin sonuna qədər isə 13 aqroparkın fəaliyyətə başlaması planlaşdırılıb ki, onlardan biri də Qax Aqroparkıdır. Bu aqroparkın yaradılmasına dövlət xətti ilə 13 milyon manatdan çox investisiya qoyulub. Bütün infrastruktur dövlət tərəfindən yaradılıb. Azərbaycanın bu ərazisinin də gözəl təbii şəraiti, münasib iqlimi, bərəkətli torpağı var.

*Ardı 3-cü səh.*



# Əməkdaşlıq daha da genişlənir, dostluq və qardaşlıq əlaqələri möhkəmlənir

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 30-da Türkmənistan Respublikası Nazirlər Kabineti sədrinin müavini Məmmetxan Çakıyevi qəbul edib.**



AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev qeyd etdi ki, dövlət başçılarının qarşılıqlı səfərləri, eləcə də beynəlxalq tədbirlər çərçivəsində mütəmadi görüşləri ölkələrimiz arasında münasibətlərin inkişafında mühüm rol oynayır. Dövlət başçısı, eyni zamanda, bildirdi ki, müvafiq strukturların rəhbərlərinin görüşləri də əməkdaşlığımızın genişləndirilməsi işinə öz töhfəsini verir. Prezident İlham Əliyev bu yaxınlarda Türkmənistan Nazirlər Kabineti sədrinin müavini, xarici işlər naziri Rəşid Meredovun ölkəmizə səfəri zamanı ikitərəfli münasibətlərimizin müxtəlif aspektlərinin müzakirə edildiyini dedi. Dövlət başçısı Türkmənistan Nazirlər Kabineti sədrinin müavini Məmmetxan Çakıyevin böyük nümayəndə heyəti ilə ölkəmizə səfərindən məmnunluğunu ifadə etdi, bu səfərin dostluq və qardaşlıq əlaqələrimizin möhkəmlənməsi, əməkdaşlığımızın daha da genişləndirilməsi işinə öz töhfəsini verəcəyinə əminliyini bildirdi.

Məmmetxan Çakıyev, ilk növbədə, Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədovun salamlarını və ən xoş arzularını dövlətimizin başçısına və Azərbaycan xalqına çatdırdı. O, hökumətlərarası səviyyədə birgə fəaliyyətin həyata keçirilməsi üçün yaradılan şəraitə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirdi.

Görüşdə ölkələrimizin əlverişli coğrafi mövqedə yerləşməsinin önəmi qeyd olundu, həm Azərbaycanda, həm də Türkmənistanda ən müasir nəqliyyat infrastrukturunun yaradıldığı vurğulanaraq nəqliyyat, tranzit, logistika sahələrində əməkdaşlığın genişləndirilməsi üçün böyük potensialın olduğu bildirildi, ölkələrimizin ixracat imkanları və tranzit yüklərin daşınması ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

Dövlət başçısı Türkmənistan Prezidentinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Qurbanqulu Berdiməhəmmədova çatdırmağı xahiş etdi.

# Azərbaycan ilə Mərakeş Krallığı beynəlxalq təşkilatlar çərçivəsində həmişə bir-birini dəstəkləyir

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 30-da Mərakeş Krallığının inzibati islahatlar və dövlət qulluğu naziri Məhəmməd bin Abdelkaderi qəbul edib.**



AZƏRTAC xəbər verir ki, dövlət başçısı Azərbaycan Respublikası ilə Mərakeş Krallığı arasında münasibətlərin yaxşı inkişaf etdiyini bildirərək, ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində həmişə bir-birini dəstəklədiyini vurğuladı. İqtisadi, regional inkişaf sahələrində də yaxşı nəticələrin olmasının zəruriliyini qeyd edən Prezident İlham Əliyev Mərakeş Krallığının inzibati islahatlar və dövlət qulluğu naziri Məhəmməd bin Abdelkaderin Azərbaycana səfərinin iki ölkə arasında əlaqələrə müsbət təsir göstərəcəyinə və ölkəmiz haqqında daha ətraflı məlumat alması işinə töhfə verəcəyinə ümidvar olduğunu bildirdi.

Mərakeş Krallığının inzibati islahatlar və dövlət qulluğu naziri Məhəmməd bin Abdelkader qeyd etdi ki, Azərbaycan Prezidenti ilə görüşü ölkələrimiz arasında mövcud olan gözəl münasibətlərin daha da inkişaf etdirilməsinin yaxşı bir nümunəsidir və siyasi iradənin təzahürüdür. Ölkəsinin də Azərbaycanla əməkdaşlığın genişləndirilməsində maraqlı olduğunu deyən Məhəmməd bin Abdelkader bildirdi ki, Azərbaycan Prezidentinin səyləri və rəhbərliyi sayəsində ölkəmiz davamlı inkişafa nail olub və Azərbaycanın əldə etdiyi nailiyyətlər Mərakeş Kralı Əlahəzrət VI Məhəmməd və Mərakeş xalqı tərəfindən böyük iftixarla qəbul olunur. Qonaq, eyni zamanda, dünya əhəmiyyətli mühüm tədbirlərin, o cümlədən Bakı Humanitar Forumu, Avropa Oyunları, Avroviziya mahnı müsabiqəsi, İslam Həmrəyliyi Oyunlarının Azərbaycanda uğurla keçirilməsi münasibətilə Prezident İlham Əliyevə təbriklərini çatdırdı.

Görüşdə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə Mərakeş Krallığı arasında imzalanmış Memorandumun əhəmiyyətindən danışıldı, Azərbaycanın bu sahədə təcrübəsinin Mərakeşdə tətbiq olunmasının önəmi qeyd olundu. Söhbət zamanı ölkələrimiz arasında siyasi əlaqələrin çox yaxşı tarixə malik olduğu vurğulandı, iqtisadi sahədə əməkdaşlığın inkişaf etdirilməsinin zəruriliyi qeyd edildi.

Məhəmməd bin Abdelkader bildirdi ki, Azərbaycan Mərakeşin ərazi bütövlüyünü dəstəklədiyi kimi, öz növbəsində, Mərakeş də Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir.

## Efiopiya Federativ Demokratik Respublikasının Prezidenti zati-aliləri xanım Sahle-Uork Zevdeyə

Hörmətli xanım Prezident!

Efiopiya Federativ Demokratik Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Efiopiya arasında dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı yolunda birgə səylər göstərəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Efiopiya xalqının rifahı naminə qarşıdakı fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 oktyabr 2018-ci il*

## A.Ə.Ağayevin Beyləqan Rayon İcra Hakimiyyətinin başçısı təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinin II hissəsini rəhbər tutaraq **qərara alıram:**

Asif Əzizağa oğlu Ağayev Beyləqan Rayon İcra Hakimiyyətinin başçısı təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 oktyabr 2018-ci il*

## V.T.Zeynalovun Bakı şəhəri Səbail Rayon İcra Hakimiyyətinin başçısı təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinin II hissəsini rəhbər tutaraq **qərara alıram:**

Vüqar Teyyub oğlu Zeynalov Bakı şəhəri Səbail Rayon İcra Hakimiyyətinin başçısı təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 oktyabr 2018-ci il*

## A.Ə.Ağayevin Şamaxı Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinin II hissəsini rəhbər tutaraq **qərara alıram:**

Asif Əzizağa oğlu Ağayev Şamaxı Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 oktyabr 2018-ci il*

## T.N.Məmmədovun Şamaxı Rayon İcra Hakimiyyətinin başçısı təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinin II hissəsini rəhbər tutaraq **qərara alıram:**

Tahir Nadir oğlu Məmmədov Şamaxı Rayon İcra Hakimiyyətinin başçısı təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 oktyabr 2018-ci il*

## Q.N.Novruzovun Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyasının rəisi təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Qulu Novruz oğlu Novruzov Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyasının rəisi təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

Bakı şəhəri, 30 oktyabr 2018-ci il

## İ.A.Ələkbərovun Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyasının rəisi vəzifəsindən azad edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

İsmayıl Ağa Qulu oğlu Ələkbərov Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyasının rəisi vəzifəsindən azad edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 oktyabr 2018-ci il*

## "Azərbaycan" İstilik Elektrik Stansiyasının infrastrukturunun təkmilləşdirilməsi istiqamətində tədbirlərin həyata keçirilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Əhalinin və iqtisadiyyatın elektrik enerjisi ilə təchiz olunmasında və ölkənin elektrik enerjisi sistemində xüsusi yer tutan "Azərbaycan" İstilik Elektrik Stansiyasında baş vermiş qəza ilə bağlı aparılmış araşdırmalar nəticəsində stansiyanın fəaliyyətində aşkar edilmiş nöqsanların aradan qaldırılması və infrastrukturunun təkmilləşdirilməsi məqsədilə Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Azərbaycan" İstilik Elektrik Stansiyasında və yarımstansiyalarında əsaslı təmir-quraşdırma işlərinin görülməsi və zəruri avadanlıqların tədarük edilməsi məqsədilə Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinə nizamnamə kapitalının artırılması üçün ilkin olaraq 48,0 (qırx səkkiz) milyon manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 oktyabr 2018-ci il*

## Argentina Respublikasının Buenos-Ayres şəhərində keçirilən Yeniyetmələrin III Yay Olimpiya Oyunlarında Azərbaycan Respublikasının idmançıları və onların məşqçiləri üçün yüksək nəticələrə görə mükafatların müəyyən edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Argentina Respublikasının Buenos-Ayres şəhərində keçirilən Yeniyetmələrin III Yay Olimpiya Oyunlarında yüksək nəticələrə görə Azərbaycan Respublikası idmançıları və onların məşqçiləri üçün mükafatların məbləği aşağıdakı qaydada müəyyən edilsin:

1.1. birinci yeri tutan hər bir idmançıya 50 min manat, onun şəxsi məşqçisinə 25 min manat;

1.2. ikinci yeri tutan hər bir idmançıya 30 min manat, onun şəxsi məşqçisinə 15 min manat;

1.3. üçüncü yeri tutan hər bir idmançıya 20 min manat, onun şəxsi məşqçisinə 10 min manat;

1.4. komandanın baş məşqçisinə idman növü üzrə ən yüksək nailiyyət göstərmiş idmançıya görə şəxsi məşqçinin aldığı məbləğ qədər (bir dəfə).

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 oktyabr 2018-ci il*

## Argentina Respublikasının Buenos-Ayres şəhərində keçirilmiş Yeniyetmələrin III Yay Olimpiya Oyunlarında Azərbaycan Respublikasının idmançıları və onların məşqçiləri üçün ən yüksək nəticələrə görə mükafatların müəyyən edilməsi haqqında

### Azərbaycan Respublikası Milli Olimpiya Komitəsi prezidentinin Sərəncamı

Buenos-Ayres şəhərində keçirilmiş Yeniyetmələrin III Yay Olimpiya Oyunlarında əldə olunmuş yüksək nəticələrə görə Azərbaycan Respublikasının idmançıları və onların məşqçilərinin mükafatlandırılması məqsədilə **qərara alıram:**

Yeniyetmələrin III Yay Olimpiya Oyunlarında yüksək nəticələrə görə Azərbaycan Respublikasının idmançıları və onların məşqçiləri üçün Milli Olimpiya Komitəsinin mükafatlarının məbləği aşağıdakı qaydada müəyyən edilsin:

- Birinci yeri tutan hər bir idmançıya 25 min manat, onun məşqçisinə isə 12 min 500 manat
- İkinci yeri tutan hər bir idmançıya 15 min manat, onun məşqçisinə isə 7 min 500 manat
- Üçüncü yeri tutan hər bir idmançıya 10 min manat, onun məşqçisinə isə 5 min manat
- Komandanın baş məşqçisinə idman növü üzrə ən yüksək nailiyyət göstərmiş idmançıya görə şəxsi məşqçisinin aldığı məbləğ qədər (bir dəfə).

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin Prezidenti***

*Bakı şəhəri, 30 oktyabr 2018-ci il*

## Kənd təsərrüfatı işçilərinə fəxri adların verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Kənd təsərrüfatının inkişafında xidmətlərinə görə aşağıdakı şəxslərə Azərbaycan Respublikasının fəxri adları verilsin:

**"Əməkdar kənd təsərrüfatı işçisi"**

Dilbazi Gülrux Hacı qızı
Həsənov Fikrət Əyyub oğlu
Sadıxova Laləzər Qafar qızı
Seyfəddinov Savalan Şahbaba oğlu

**"Əməkdar müəllim"**

Qurbanov Xalid Hümbətəli oğlu
Məmmədov Nurəddin Nəcəf oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 oktyabr 2018-ci il*

## "Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun Himayəçilik Şurası üzvlərinin təyin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 25 dekabr tarixli 3547 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun Himayəçilik Şurası üzvlərinin təyin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 25 dekabr tarixli 3547 nömrəli Sərəncamında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 12 (I kitab), maddə 2462) "Sevinc Həsənova" sözləri "Şirzad Abdullayev" sözləri ilə, "Emin Hüseynov - Azərbaycan Respublikası maliyyə nazirinin müavini" sözləri "İlqar Fətizadə - Azərbaycan Respublikası maliyyə nazirinin birinci müavini" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 oktyabr 2018-ci il*

## Kənd təsərrüfatı işçilərinin təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Kənd təsərrüfatının inkişafında xidmətlərinə və dövlət qulluğunda səmərəli fəaliyyətinə görə aşağıdakı şəxslər təltif edilsinlər:

**3-cü dərəcəli "Əmək" ordeni ilə**

Allazov Bayram Osman oğlu
Hüseynov Bəyverdi Dənzi oğlu
Mirzəyeva Familə Mirzə qızı
Osmanova Sevil İdris qızı
Səlimov Əlibala Xanəhməd oğlu

**"Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə**

Abbasov Xaliq Dilavər oğlu
Alıyev Rahid Qoşqar oğlu
Hüseynov Bəhman Afət oğlu
Məmmədova Solmaz Tələt qızı
Sərdarlı İsmayıl Zülfüqar oğlu
Şahbazova Zərifə Şahbaz qızı
Təhməzov Ramiz Xansuvar oğlu

**"Tərəqqi" medalı ilə**

Ağayev Fizuli Ədil oğlu
Bəhrəmov Teymur Sahib oğlu
Hacıməmmədov İmralı Mahmud oğlu
Həsənov Eldəniz Əli oğlu
Həsənov Həzi Kərəm oğlu
Həsrətov Bədrəddin Hacıbəy oğlu
Hümbətov Zaur İsrafil oğlu
Hüseynov Balaeyvaz Balaqardaş oğlu
Hüseynov Oqtay Qılınc oğlu
Hüseynov Pamir Nəsurullah oğlu
Hüseynov Sədafər Misir oğlu
İsrafilov İsrafil Paşa oğlu
Qubatov Əfrasiyab Qubat oğlu
Məmmədli Əşrəf Teymur oğlu
Məmmədov Eynəddin Hüseyn oğlu
Məmmədov Fuad Hüseyn oğlu
Məmmədov İldırım Nurulla oğlu
Mirzəyev Xanlar Soltanəhməd oğlu
Paşaliyev İbrahim Süleyman oğlu
Sadıqov Talıb Hüseyn oğlu
Şeydayev Fayiq Mövlud oğlu
Tağıyev Tağı Məsim oğlu
Usubov Adil Sabir oğlu
Yağubov Araz Mirzəkişi oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 oktyabr 2018-ci il*

Milli Məclisin iclasında

# Dəyişikliklər qanunvericiliyin təkmilləşdirilməsinə xidmət edir

**Oktyabrın 30-da Milli Məclisin plenar iclası keçirildi. İclasa sədrlik edən Milli Məclis Sədrinin birinci müavini Ziyafət Əsgərov 5 məsələnin gündəlikdən çıxarıldığını bildirdi.**






















## Dağlıq Qarabağ münaqişəsinə beynəlxalq dairələrin münasibəti dəyişməlidir

Gündəlikdəki məsələlərin müzakirəsinə keçməzdən əvvəl deputatlar cari məsələlərlə bağlı fikirlərini bildirərək müxtəlif təkliflərlə çıxış etdilər. Deputat Fazil Mustafa Stalin repressiyasının qurbanı olan şəxslərə məxsus məzarların tapılması ilə bağlı informasiyalara münasibət bildirdi. Qeyd etdi ki, bu məlumatlar ciddi araşdırılmalıdır. Deputat Sahil Babayev, keçmiş "26-lar" abidəsinin yerində repressiya qurbanlarının xatirəsinə hörmət əlaməti olaraq abidə ucaldılmasını təklif etdi.

Deputat Zahid Oruc çıxışında Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqların birbaşa iki ölkə rəhbərliyi arasında aparılmasının doğru olduğunu söylədi. Bildirdi ki, ötən əsrin 90-cı illərində münaqişənin həllində beynəlxalq aləmin dəstəyini qazanmaq üçün ATƏT-in Minsk qrupu təşkil edildi. Ancaq indi münaqişənin həllinin qrupda iştirak edən tərəflərin mənafeyindən asılı hala düşdüyü bəlli olub. Zahid Oruc dedi ki, beynəlxalq dairələrin bu məsələyə qarışmış əllərini bir qədər neytrallaşdırmaq lazımdır ki, danışıqlar aparmaq mümkün olsun.

Deputat Fəzail Ağamalı Türkiyədə "Star" neft emalı zavodunun açılışı ilə bağlı qənaətlərini bölüşərək dedi ki, bu layihə bir daha Azərbaycan və Türkiyə qardaşlığının ifadəsi kimi tarixə düşdü. Bu zavod Türkiyəyə və Azərbaycana ciddi iqtisadi və maliyyə dividendləri gətirəcək, iki ölkə arasında münasibətlərin inkişafında mühüm rol oynayacaq.

Sonra gündəlikdəki məsələlərin müzakirəsinə başlanıldı.

Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununda (üçüncü oxunuş) dəyişiklik edilməsi barədə qanun layihəsi haqqında məlumat verdi. Bildirdi ki, təklif edilən dəyişikliklər normativ hüquqi aktların səmərəliliyinin artırılması, vaxt itkisinə yol verilməməsi və çevikliyin təmin edilməsi məqsədi ilə təklif edilir. Layihə qəbul edildi.

"Diplomatik xidmətə verilən töhfəyə görə" medalın təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında", "Azərbaycan Respublikası dövlət təhlükəsizliyi və xarici kəşfiyyat orqanlarının 100 illiyi (1919-2019)" yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" və "Təhsil haqqında" qanunlarda, Mülki Prosessual Məcəllədə dəyişikliklər edilməsi haqqında qanun layihələri də üçüncü oxunuşda səsə qoyularaq qəbul edildi.

Deputatlar Vergi Məcəlləsində, Gömrük Məcəlləsində, Mülki Məcəllədə və "Banklar haqqında" qanunda dəyişikliklər edilməsi barədə layihələrə üçüncü oxunuşda müsbət münasibət bildirdilər.

## İpoteka sahəsində şəffaflıq artırılır

İclasda "İpoteka haqqında" qanunda dəyişikliklər edilməsi barədə qanun layihəsi də üçüncü oxunuşda müzakirəyə çıxarıldı. Komitə sədri Əli Hüseynli bildirdi ki, qanun layihəsi bu sahədə məmur-vətəndaş təmasının minimum səviyyəyə çatdırılması, şəffaflığın artırılması, sağlam və təhlükəsiz elektron informasiya mübadiləsinin təmin edilməsi məqsədilə hazırlanıb. Layihə təsdiq olundu.

İclasda həmçinin "Lotereyalar haqqında" qanunda dəyişikliklər edilməsi barədə (üçüncü oxunuş) layihə də səsə qoyularaq təsdiqləndi. Dəyişikliklər lotereyaların, o cümlədən elektron lotereyaların təşkili və keçirilməsinə nəzarət mexanizmlərinin, bu sahədə hüquqi bazanın daha da təkmilləşdirilməsini, lotereyalar təşkilatçısının təsisçisinə dair tələblərin, lotereyalarda iştirak edən şəxslərin yaş məhdudiyyətinə dair müddəaların qanuna daxil edilməsini, elektron lotereyaların dövlət qeydiyyatına alınmış elektron informasiya sistemi vasitəsilə həyata keçirilməsini nəzərdə tutur.

"Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında" (üçüncü oxunuş), "İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" (üçüncü oxunuş) qanun layihələri barədə məlumat verən Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli bildirdi ki, hər iki məcəllədə sanksiyalar sərtləşdirilir. Qanun layihələri səsə qoyularaq təsdiqləndi.

Gündəlikdəki altı sənəd - "İnzibati icraat haqqında" qanunda dəyişiklik edilməsi barədə (üçüncü oxunuş) , "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" qanunda dəyişikliklər edilməsi barədə (üçüncü oxunuş) , "Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında" qanunda dəyişikliklər edilməsi barədə (üçüncü oxunuş) , "Pasportlar haqqında" qanunda dəyişikliklər edilməsi barədə (üçüncü oxunuş), "Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında" (üçüncü oxunuş), "İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" (üçüncü oxunuş) qanun layihələri də səsə qoyularaq qəbul edildi.

Milli Məclisin Regional məsələlər komitəsinin sədri Arif Rəhimzadə "Bələdiyyələrin statusu haqqında" qanunda dəyişiklik edilməsi barədə (üçüncü oxunuş) qanun layihəsi haqqında məlumat verərək bildirdi ki, dəyişikliyə əsasən, qəbiristanlıqların salınması və idarə olunması üçün müəyyən edilmiş qaydaları pozanlar Inzibati Xətalar Məcəlləsində nəzərdə tutulmuş hallarda məsuliyyət daşıyırlar. Qanun layihəsi qəbul olundu.

"Bələdiyyələrin maliyyəsinin əsasları haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (üçüncü oxunuş) də səsə qoyularaq qəbul edildi.

## Uşaqların zərərli informasiyadan qorunması qanunla tənzimlənəcək

Daha sonra "Uşaqların zərərli informasiyadan qorunması haqqında" qanun layihəsi (üçüncü oxunuş) müzakirəyə təqdim edildi. Milli Məclisin Ailə, qadın və uşaq komitəsinin sədri Aqiyə Naxçıvanlı bildirdi ki, bu qanun uşaqların yaşına uyğun informasiya əldə etmək hüququnun həyata keçirilməsi ilə əlaqədar olaraq, uşaqların onlar üçün zərərli informasiyadan qorunması tədbirlərini müəyyən edəcək və bu sahədə yaranan münasibətləri tənzimləyəcək. Müzakirələrdən sonra qanun layihəsi üçüncü oxunuşda qəbul edildi. Qanun 2020-ci il yanvarın 1-dən qüvvəyə minəcək.

Gündəlikdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Tacikistan Respublikasının Prezidenti Emomali Rahmonun birgə bəyanatının təsdiq edilməsi haqqında qanun layihəsi də səsə qoyularaq təsdiqləndi.

"Dövlət sirri haqqında" qanunda dəyişiklik edilməsi barədə layihə haqqında Milli Məclis Sədrinin birinci müavini Ziyafət Əsgərov məlumat verdi. Dedi ki, dəyişikliklərə əsasən. dövlət sirrinin mühafizəsi ilə bağlı dövlət orqanlarının siyahısı genişləndirilir. Qanun layihəsi təsdiq olundu.

Daha sonra "Avtomobil yolları haqqında", "Yerli (bələdiyyə) vergilər və ödənişlər haqqında", "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" qanunlarda , Mülki Prosessual Məcəllədə və Cəzaların İcrası Məcəlləsində dəyişikliklər edilməsi barədə, "Ədliyyə orqanlarında qulluqkeçmə haqqında", "Prokurorluq orqanlarında qulluqkeçmə haqqında", "Fövqəladə hallar orqanlarında xidmətkeçmə haqqında" Azərbaycan Respublikasının qanunlarında və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi barədə" qanun layihəsi səsə qoyularaq qəbul edildi.

Gündəliyə daxil olan Azərbaycan Respublikasının 1999-cu il 7 dekabr tarixli 768-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Gömrük orqanlarında xidmət haqqında Əsasnamə"də, 2001-ci il 12 iyun tarixli 141-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Dövlət vergi orqanlarında xidmət haqqında Əsasnamə"də, 2001-ci il 29 iyun tarixli 168-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmətkeçmə haqqında Əsasnamə"də və 2009-cu il 4 dekabr tarixli 930-IIIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Miqrasiya orqanlarında qulluqkeçmə haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə qanun layihəsi səsə qoyularaq qəbul edildi

İclasda "Vəkillər və vəkillik fəaliyyəti haqqında" qanunda dəyişiklik edilməsi barədə layihə ikinci oxunuşda müzakirəyə çıxarıldı. İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov qanun layihəsi barədə fikir bildirərək qeyd etdi ki, ölkəmizdə vəkillər və vəkillik fəaliyyəti ilə bağlı güclü qanuni baza mövcuddur. Siyavuş Novruzov bildirdi ki, mütəmadi olaraq qanunvericilikdə edilən dəyişikliklərlə bağlı vəkillər məlumatlandırılmalıdır. Əksəriyyəti qanunda nələrin dəyişdiyindən xəbərsizdir. Qanun layihəsi qəbul olundu

Milli Məclisin günün birinci yarısında keçirilən iclasında Azərbaycan Respublikasının 1997-ci il 3 oktyabr tarixli 377-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Hərbi xidmətkeçmə haqqında Əsasnamə"də, "Dövlət rüsumu haqqında", "Baytarlıq haqqında", "Fitosanitar nəzarəti haqqında" və "Yeyinti məhsulları haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihələri ikinci oxunuşda qəbul edildi.

## Aviasiya təhlükəsizliyi daha da gücləndirilir

Günün ikinci yarısında müzakirələri davam etdirən Milli Məclis bir sıra mühüm sənədlərə əlavə və dəyişiklikləri qəbul etdi.

Parlamentin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadə "Aviasiya haqqında"qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi haqqında (birinci oxunuş) məlumat verərək bildirdi ki, sənədə "Azərbaycan Respublikasının ərazisinə enəcək və ölkə ərazisini tərk edəcək hava gəmisinin sərnişinləri və ekipajı barədə məlumatların alınması" məzmununda 43-1-ci maddə əlavə edilməsi təklif olunur. Sənəd aviasiya təhlükəsizliyinin təmin edilməsi məqsədi ilə hazırlanıb və daşıyıcılar üçün Azərbaycan ərazisinə enəcək, ölkə ərazisini tərk edəcək hava gəmilərinin sərnişin, eləcə də ekipaj üzvləri barədə müvafiq icra hakimiyyəti orqanına məlumat vermək öhdəliyi müəyyən edir. Sənəd səsə qoyularaq qəbul edildi.

"Dövlət borcu haqqında" qanunda dəyişikliklə bağlı qanun layihəsi (birinci oxunuş) barədə də Ziyad Səmədzadə məlumat verdi. Bildirdi ki, bu sənəd "Kredit büroları haqqında" qanunun tətbiqi ilə əlaqədar hazırlanıb. Dəyişikliyə əsasən, dövlət zəmanəti ilə borc almaq üçün müraciət edən borcalandan "mərkəzləşdirilmiş kredit reyestrindən çıxarış" əvəzinə, "Kredit bürosundan kredit hesabatı" adlı sənəd tələb olunacaq. Deputatlar dəyişikliyə müsbət münasibət bildirdilər.

## Ölkəyə ekstradisiya edilən təqsirləndirilən şəxs çəkilən xərcləri də ödəyəcək

"Cinayət Prosessual Məcəlləsində dəyişikliklər edilməsi haqqında" qanun layihəsi (birinci oxunuş) barədə də Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli məlumat verdi.

Bildirdi ki, hazırda Azərbaycan ərazisindən kənarda istintaqdan gizlənən təqsirləndirilən şəxsin tutularaq cinayət prosesini həyata keçirən orqana ekstradisiyası ilə əlaqədar çəkilmiş xərclər bu günə qədər dövlətin hesabına həyata keçirilir. Qanun layihəsinə edilən dəyişiklik bu xərclərin təqsirləndirilən şəxsdən tutulmasını nəzərdə tutur. Dəyişiklik səsə qoyularaq qəbul edildi.

## Milli Məclis hansı hallarda buraxıla bilər

İclasda Azərbaycan Respublikasının 1996-cı il 17 may tarixli 74-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında, "Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında" və "Azərbaycan Respublikası Milli Məclisi deputatının etik davranış qaydaları haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihələri də (hər üçü birinci oxunuş) müzakirəyə çıxarıldı.

Komitə sədri Əli Hüseynli hər üç sənədə nəzərdə tutulan dəyişiklikləri şərh etdi. İlk sənədə edilən dəyişikliklərdə Milli Məclisin buraxılması, deputatlıqdan məhrumetmə, komitələrin fəaliyyəti, qanun layihələrinin hazırlanması və müzakirələri, oxunuşları, həmçinin digər vacib məsələlər öz əksini tapıb.

Milli Məclisin buraxılması ilə bağlı Daxili Nizamnaməyə yeni 23-2 maddəsi (Milli Məclisin buraxılması) əlavə olunur. Maddəyə görə Milli Məclis bu hallarda buraxıla bilər: Azərbaycan Konstitusiyasının 98-ci maddəsinin I hissəsinə uyğun olaraq, Milli Məclisin eyni çağırışı bir il ərzində iki dəfə Nazirlər Kabinetinə etimadsızlıq göstərdikdə və ya Konstitusiya Məhkəməsinin, Ali Məhkəmənin və Mərkəzi Bank İdarə Heyətinin kollegial fəaliyyəti üçün zəruri olan sayda üzvlüyə namizədləri Prezident tərəfindən iki dəfə təqdim edildikdən sonra, bu, Daxili Nizamnamənin 26-cı maddəsinin birinci hissəsində müəyyən edilmiş müddətdə təyin etmədikdə, habelə Konstitusiyasının 96-cı maddəsinin II, III, IV və V hissələrində, 97-ci maddədə göstərilən vəzifələrini aradan qaldırıla bilməyən səbəblər üzündən icra etmədikdə ölkə Prezidenti Milli Məclisi buraxır.

## İntizam Komissiyasının səlahiyyətləri genişləndirilir

Milli Məclisin Daxili Nizamnaməsinin 23-cü maddəsinə edilən dəyişiklikdə isə deputat səlahiyyətlərinin itirilməsi məsələsi əksini tapır. Dəyişikliklərə görə, Konstitusiyanın 89-cu maddəsinin I hissəsinin birinci bəndinin 4-cü, 6-cı və 7-ci yarımbəndlərində göstərilən əsaslar olduqda Milli Məclisin Sədri həmin deputat haqqında məsələni parlamentin İntizam Komissiyasına göndərir. İntizam Komissiyası bu məsələyə mandatından məhrum edilməsi nəzərdə tutulan deputatın iştirakı ilə iki həftə müddətində baxıb müvafiq rəy qəbul edərək Milli Məclisin Sədrinə təqdim edir. Pozuntu halları rəydə öz əksini tapdıqda, Milli Məclisin Sədri həmin deputatın mandatdan məhrum edilməsi ilə bağlı İntizam Komissiyasının rəyini Mərkəzi Seçki Komissiyasına göndərir.

Milli Məclisin deputatı parlamentin iclasında mandatdan imtina etdikdə və həmin imtina iclasın stenoqramına daxil edildikdə, deputat bu imtinasını geri götürə bilməz. Bu halda Milli Məclisin Sədri həmin deputatın mandatdan imtina etdiyi iclasın stenoqramını və ya stenoqramdan çıxarışı Mərkəzi Seçki Komissiyasına göndərir.

"Milli Məclisin deputatının etik davranış qaydaları haqqında" qanuna isə yeni 10.3-cü maddə təklif edilir. Təklif olunan maddəyə görə qanunsuz olaraq maddi və sair nemətlər, imtiyazlar və güzəştlər təklif olunduğu hallarda deputat onlardan imtina etməlidir.Yəni, bu dəyişikliklər deputatlara hədiyyə alma ilə əlaqədar məhdudiyyətlər yaradır.

Qanunun 10-cu (Hədiyyə alma ilə əlaqədar məhdudiyyətlər) maddəsinə əlavə edilən 10.1-1 bəndinə əsasən, deputat xidməti vəzifəsinin icrası ilə əlaqədar hər hansı fiziki və hüquqi şəxsdən ümumi məbləği 55 manatdan yuxarı olan hədiyyə qəbul edə bilməz, habelə bu cür hədiyyəni xidməti vəzifəsinin icrası ilə əlaqədar hər hansı fiziki və ya hüquqi şəxsə təklif edə bilməz.

Bütün bunlar deputata ondan asılı olmayan səbəbdən verilərsə, o, bu barədə Milli Məclisin İntizam Komissiyasına məlumat verməlidir.

## Yeni dəyişikliklər deputatların əleyhinə yönəlməyib

Müzakirələr zamanı çıxış edən deputatlar Qüdrət Həsənquliyev, Musa Quliyev, Fazil Mustafa, Aqil Abbas, Zahid Oruc, Rasim Musabəyov və Aydın Hüseynov əsasən İntizam Komissiyasının rəyi ilə deputat mandatının ləğv edilməsi məsələsinə diqqət çəkdilər. Bildirildi ki, bu, deputatların xeyirinə hazırlanan dəyişikliklər deyil. Çünki İntizam Komissiyanın qərarı ilə xalqın seçdiyi deputatın mandatından məhrum edilməsi düzgün hal deyil.

İclası aparan Milli Məclis Sədrinin birinci müavini Ziyafət Əsgərov deputatların bu narahatçılıqlarını görüb məsələyə öz münasibətini bildirdi. Dedi ki, bu qanun layihələrinə edilən dəyişikliklər heç bir halda deputatların əleyhinə yönəlməyib. Bunun səbəbləri ikinci oxunuşda bəlli olacaq.

Bundan sonra hər üç sənəd ayrı-ayrılıqda səsə qoyularaq birinci oxunuşda qəbul edildi.

## "Psixoloji yardım haqqında" qanun layihəsi ilk oxunuşda təsdiq edildi

İclasda "Psixoloji yardım haqqında" qanun layihəsi müzakirəyə çıxarıldı. Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov sənədlə bağlı məlumat verərək bildirdi ki, respublikamızda əhaliyə göstərilən psixoloji yardımın sistemləşdirilməsi, qanuni əsaslarının yaradılması, psixoloji yardımın kim tərəfindən göstərilə bilməsi, psixoloji yardım göstərən və yardım alan şəxsin hüquq və vəzifələrinin müəyyən edilməsi və s. sahədə münasibətlərin tənzimlənməsi zərurəti bu qanun layihəsinin hazırlanmasının vacibliyini sosial sifariş kimi ortaya qoyub.

Yeni qanun layihəsi 6 fəsil 22 maddədən ibarətdir. Layihdə ümumi müddəalar, psixoloji yardımın növləri və formaları, bu sahədə dövlət siyasəti, psixoloji yardım iştirakçılarının hüquq və vəzifələri öz əksini tapıb.

Komitə sədri dedi ki, Milli Məclis Sədri Oqtay Əsədovun göstərişinə əsasən qanun layihəsinin hazırlanması ilə bağlı 2015-ci ildə işçi qrupu yaradılıb. İşçi qrupu qanun layihəsi hazırlayarkən bir çox ölkələrin bu istiqamətdə qəbul etdikləri sənədləri nəzərdən keçirib.

Müzakirələr zamanı deputatlardan Qüdrət Həsənquliyev, Tahir Rzayev, Nizami Cəfərov, İlham Məmmədov, Zahid Oruc, Ülviyyə Həmzəyeva, parlamentin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Aqiyə Naxçıvanlı, Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov, Elm və təhsil komitəsinin sədri İsa Həbibbəyli çıxış edərək bildirdilər ki, bu gün dünyada minlərlə insan psixi xəstəlikdən əziyyət çəkir. Ona görə də bu qanun layihəsi günün sifarişidir. Sənədin hazırlanmasında çox mühüm işlər görülüb və beynəlxalq təcrübə nəzərdən keçirilib. Bu da mükəmməl bir sənədin ortaya çıxması ilə nəticələnib. Qeyd edildi ki, bu sənədin qəbulu bəzi yalançı psixoloqların, falçıların "bazarını" bağlayacaq.

Deputatlar həmçinin sənədə əlavə və təkliflərini səsləndirdilər və qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul edildi. Bununla da Milli Məclisin plenar iclası başa çatdı.

***Fərizə ƏHMƏDOVA, Rəşad BAXŞƏLİYEV, Fərman BAĞIROV (foto), "Azərbaycan"***

# Yeni müəssisələr, yollar, xidmət obyektləri...

## Onlar təkcə Qax və Şəkidə deyil, bütün ölkədə aqrar sahənin inkişafına xidmət edəcək

*Əvvəli 1-ci səh.*

Odur ki, kənd təsərrüfatının inkişafına yönəldilən tədbirlər, o cümlədən yeni aqroparkın yaradılması bu təbii şəraitdən səmərəli istifadə etməyə imkan verəcək. Burada suvarma sistemlərinin, ilk növbədə, pilot və damcılama sistemlərinin qurulması məhsuldarlığın artmasına kömək edəcək.

Qaxın Ağyazı qışlaq otlağının ərazisində yerləşən aqroparkın yaradılması üçün meliorativ tədbirlərə 9 milyon manat, elektrik təminatına 4,7 milyon manat investisiya qoyulub. Ümumi ərazisi 2094 hektar olan aqroparkın 1268 hektarı suvarılan sahədir. Bunun da bir hissəsində pilot qurğusu quraşdırılıb, digər hissəsində damcılama sistemi yaradılıb.

Görülən tədbirlər rayon üçün ənənəvi sayılan tütünçülükdə, baramaçılıqda və digər kənd təsərrüfatı sahələrində öz müsbət nəticələrini göstərəcək. Bunu deməyə keçən il həmin sahələrin inkişafı ilə bağlı Qaxda keçirilən respublika müşavirəsindən sonra əldə olunan nailiyyətlər əsas verir. Belə ki, burada fındıq bağlarının sahəsi 30 faiz genişləndirilərək 900 min hektara çatıb. Əgər üç il bundan əvvəl cəmi 300 hektarda tütün əkilmişdisə, hazırda əkin sahəsinin ərazisi ikiqat artıb.

Barama istehsalı isə bu il üç il əvvəlki 200 kiloqramdan 500 tona çatıb. Aqroparkın ərazisində 1200 hektarda buğda, 169 hektarda qarğıdalı, 65 hektarda soya əkilib. Bundan əlavə, badam, qoz, şaftalı, alma, gavalı, ərik və gilas ağacları əkilmiş geniş bağlar salınıb. Burada illik 15,2 milyon manatlıq məhsulun istehsalı gözlənilir.

Məhsul istehsalının artırılmasının əsas şərtlərindən biri də münasib infrastrukturdur. Bu baxımdan dövlət başçısının açılışında iştirak etdiyi Qax-Qıpçaq-Ağyazı avtomobil yolunun böyük əhəmiyyəti var. Uzunluğu 44,5 kilometr olan bu yol 13 məntəqəni əhatə edir, 4 min nəfər əhalinin rahat gediş-gəlişinə imkan verir.

Yoldan söz düşmüşkən, Yevlax-Zaqatala-Gürcüstan ilə dövlət sərhədi avtomobil yolunun Zaqatala-Balakən-Mazımçay hissəsi yüksək keyfiyyətlə əsaslı təmir edilib. Bu yol iki rayonun inzibati ərazisindən keçməklə 16 yaşayış məntəqəsini birləşdirir. Yeni təmir olunmuş yol yerli əhalinin gediş-gəlişinin rahatlığına və kənd təsərrüfatının inkişafına xidmət etməklə yanaşı, Gürcüstana, eləcə də əks istiqamətdə sərnişin və yük daşımasını xeyli asanlaşdıracaq.

Bu regionda Qarağan-Qax-Zaqatala avtomobil yolunun Qax-Zaqatala hissəsi də yenidən qurulub. Böyük Qafqaz sıra dağlarının ətəyi ilə uzanan bu yol böyük turizm marşrutlarından biridir və təbii ki, bu sahənin inkişafını da sürətləndirəcək.

Bölgədəki ən mühüm yeniliklərdən biri də Qax Damazlıq İpəkçilik Stansiyasının istifadəyə verilməsidir. Xatırladaq ki, bu stansiyanın əsası 1973-cü ildə qoyulub. Lakin 20 il əvvəl maliyyə çətinliyi səbəbindən stansiya fəaliyyətini dayandırıb. Üç il əvvəl isə müəssisə Nazirlər Kabinetinin qərarı ilə Kənd Təsərrüfatı Nazirliyinin tabeliyinə verilib.

Ötən il Prezident İlham Əliyev "Azərbaycan Respublikasında ipəkçiliyin maddi-texniki bazasının yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" sərəncam imzalamış və Qax Damazlıq İpəkçilik Stansiyasının bərpasına, burada əlavə istehsal sahələrinin yaradılmasına və onların müasir avadanlıqlarla təchiz olunmasına, bir sözlə, əsaslı yenidən qurulmasına başlanmışdır. Bu məqsədlə Prezidentin Ehtiyat Fondundan Kənd Təsərrüfatı Nazirliyinə 4,5 milyon manat vəsait ayrılmışdır.

Stansiyanın ərazisində 3 hektar sahədə Çin texnologiyası əsasında intensiv tipli tut bağları salınıb. Mövcud bağlarda bərpa və yenidənqurma işləri aparılmaqla tut ağaclarının məhsuldarlığı artırılacaq, barama toxumçuluğu inkişaf etdiriləcək, yeni məhsuldar ipəkqurdu cinsləri və hibridləri yaradılacaq. Damazlıq ipəkçilik sahəsində sənayenin ən müasir texnologiyalarından istifadə edilməsi təşkil olunacaq.

Bu müəssisənin istifadəyə verilməsi təkcə Qaxda və ona qonşu olan bölgələrdə deyil, bütün ölkədə ipəkçiliyin maddi-texniki bazasının yaxşılaşdırılmasında müstəsna rol oynayacaq.

Bütün bunlar bir daha təsdiq edir ki, Azərbaycanın hər yerində olduğu kimi, Şəki və Qax rayonlarında da aqrar sahə yeni inkişaf mərhələsinə qədəm qoyub. Dövlət başçısının sözügedən rayonlara səfəri zamanı keçirilən görüşlərdə bir daha vurğulanıb ki, Şəki-Zaqatala iqtisadi rayonunda yeni yaradılan müəssisələrin fəaliyyəti getdikcə genişlənir, tütün, fındıq, bal, quru meyvə və s. məhsulların istehsalı artır. İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondu bu iqtisadi rayon üzrə 2400-dək investisiya layihəsinin maliyyələşdirilməsinə 109 milyon manat güzəştli kredit verib. Nazirlik tərəfindən iqtisadi rayon üzrə 28 sahibkarlıq subyektinə 24 investisiya təşviqi sənədi təqdim olunub. Müasir texnologiyaların tətbiqi ilə güzəştli kreditlərdən istifadə etməklə Şəki və Qax rayonlarında 1400 hektar ərazidə yeni fındıq bağları salınıb. Şəki rayonunda 30 tütünqurutma kamerası, Qax rayonunda balın sənaye üsulu ilə emalı və qablaşdırılması, Balakən rayonunda isə meyvəqurutma, sərinləşdirici içkilərin istehsalı müəssisələri yaradılır.

Aqrar sahənin inkişafına yönəldilən tədbirlərin davamlı olması gələcək uğurlardan xəbər verir. Bu tədbirlər yeni iş yerlərinin açılmasına, istehsal edilən məhsulun keyfiyyətinin yüksəldilməsinə və həcminin artırılmasına, ixrac potensialının gücləndirilməsinə xidmət edir.

***Flora SADIQLI, "Azərbaycan"***

# Bizim ordumuz bizim qürurumuzdur

*Əvvəli 1-ci səh.*









Sərhədçilər dövlət sərhədinə basqın edən düşmənlə mübarizədə qarşıya qoyulmuş tapşırığı uğurla yerinə yetiriblər. Xüsusi təyinatlı qrup isə düşmən kolonunu mina tələsinə salaraq döyüş texnikalarını qrupun atəşi ilə məhv edib, irəliləmə və geriçəkilmə yollarını bağlayıb.

Düşmənin döyüş-nəqliyyat vertolyotlarından istifadə etməklə qoşunlarımızın müdafiə dərinliyinə hava desantı çıxarmaq cəhdinin qarşısı alınıb, Əlahiddə Əməliyyat Briqadasının xüsusi təyinatlı dəstəsi düşmənin taktiki hava desantını mühasirəyə alaraq qısa müddətdə zərərsizləşdirib. Hakim yüksəkliyin aşırımını müdafiə edən düşmənin canlı qüvvəsini məhv etmək üçün xüsusi təyinatlı qrup ərazinin relyefindən yararlanaraq düşmən mövqeyinə gizli şəkildə yaxınlaşıb. Xüsusi təyinatlı qrup sərrast atəşlərlə düşmənin canlı qüvvəsini məhv edib, müdafiə mövqeyini ələ keçirib və hakim yüksəklik istiqamətində digər qrupların fəaliyyətinə əlverişli şərait yaradıb. Dağ aşırımının digər yamacını ələ keçirmək tapşırığı almış xüsusi təyinatlı qrup təyin edilmiş rayona zirehli “SANDCAT” avtomobilləri ilə hərəkət edib. Xüsusi təyinatlı qrup yüksəklikdə yerləşən düşmən mövqeyini ələ keçirməklə hakim yüksəkliyə hücum edən bölmələrin cinahlardan təhlükəsizliyinə və taktiki desantın hakim yüksəkliyə endirilməsinə şərait yaradıb.

Sərf edilmiş döyüş sursatlarının yenisi ilə təmin olunması, yaralıların təxliyə edilməsi, partlamayan və partlayıştəhlükəli mərmilərin tapılaraq zərərsizləşdirilməsi üçün Fövqəladə Hallar Nazirliyinin pirotexniki taqımı, kinoloqları və xilasediciləri qarşıya qoyulan tapşırıqları uğurla yerinə yetiriblər. Alpinistlər əlverişli istiqamətlərdə hakim yüksəkliyə qalxaraq bölmələrimizə müxtəlif döyüş sursatları çatdırıb, yaralanmış şəxsi heyət təxliyə olunub.

Təlimin gedişində düşmənin ehtiyatlarına aviasiya zərbəsi və hakim yüksəkliyə taktiki hava desantının endirilməsi göstərişi verilib. “SU-25” təyyarələri hədəfi qısa müddətdə məhv edib, “Mİ-35M” vertolyot manqası düşmənin hakim yüksəklikdə yerləşən mövqelərinə atəş zərbələri endirib. Vertolyotlardan endirilən taktiki hava desantı qrupları mühasirəyə aldıqları düşməni məhv ediblər. “KORD” və “NSVT” pulemyotları ilə silahlandırılmış “KOBRA” və “SANDCAT” yüngül zirehli transportyorların heyətləri düşmənin atəş nöqtələrini susdurublar. Snayper cütlükləri düşmənin döyüş sahəsində komanda heyətini, rabitəçiləri və əsas atəş vasitələrini aşkar edərək zərərsizləşdiriblər. Xüsusi təyinatlı qruplar isə Azərbaycan istehsalı olan “ZƏFƏR” tapançalarından və digər atıcı silahlardan istifadə edərək düşmənin yaxın məsafələrdəki canlı qüvvəsini məhv edib.

Naxçıvan Qarnizonu qoşunlarının xüsusi təyinatlı birləşmə və hissələrinin qarşılıqlı əlaqədə birgə fəaliyyəti nəticəsində təlimdə qarşıya qoyulmuş məqsədlərə tam nail olunub, yaradılmış hədəf qrupları və maketləri məhv edilib.

Xüsusi təyinatlı qruplar tərəfindən təlim ərazisindəki ən yüksək zirvədə üçrəngli bayrağımız qaldırılıb və işğaldan azad edilmiş Günnüt kəndi ilə bağlı “Günnüt Azərbaycan əsgərinin rəşadət əzmidir” şüarı nümayiş olunub.

Əlahiddə Ümumqoşun Ordu komandanı, general-leytenant Kərəm Mustafayev təlimin başa çatması barədə raport verdikdən sonra təlimdə iştirak edən şəxsi heyətlə görüş olub.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov hərbi təlimin hadisəsiz və uğurla başa çatması münasibətilə zabit, gizir və əsgərləri təbrik edib, təlimdə iştirak edən bütün şəxsi heyətə təşəkkürünü bildirərək deyib: “Bu il ölkəmizdə Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktının qəbul olunmasının 27-ci ildönümü qeyd olundu. Hər bir dövlətin inkişafı üçün onun müstəqilliyi vacib şərtdir. Ümummilli liderimiz Heydər Əliyev deyirdi ki: *“Müstəqilliyin əldə olunması nə qədər çətindirsə, onun saxlanılması, əbədi olması bundan da çətindir”.*

Ali Məclisin Sədri deyib: “Ordusu olmayan dövlət müstəqil ola bilməz. Güclü ordu güclü dövlətçilik, sabitlik və inkişaf deməkdir. Azərbaycan xalqının heç bir zaman öz müstəqilliyindən geri çəkilməyəcəyini bəyan edən ümummilli liderimiz deyirdi ki, *“Azərbaycan təkcə bu gün yox, gələcəkdə də torpaqlarını, dövlət müstəqilliyini qorumaq üçün güclü orduya malik olmalıdır”.* Ulu öndərin ordu quruculuğu sahəsində başladığı işi uğurla davam etdirən ölkə Prezidenti cənab İlham Əliyev dövlət müstəqilliyimizin qarantı olan güclü ordu yaratmışdır. Bu gün ordumuzun maddi-texniki bazasının gücləndirilməsi və döyüş hazırlığının artırılması istiqamətində kompleks tədbirlər görülür”.

Qeyd olunub ki, Naxçıvan Muxtar Respublikasının da müdafiə qabiliyyətinin möhkəmləndirilməsinə xüsusi diqqət yetirilir. Keçirilən hərbi təlim də göstərdi ki, Azərbaycan Silahlı Qüvvələrinin Naxçıvan Muxtar Respublikasındakı ordu, birləşmə və hissələri istənilən döyüş tapşırığını müvəffəqiyyətlə yerinə yetirməyə qadirdir. Ordumuz ona görə güclüdür ki, şəxsi heyətdə yüksək vətənpərvərlik var. Vətənpərvərlik sahib olduğumuz ən ali dəyərimizdir. Bu gün keçirilən hərbi təlimdən çıxarılan konkret nəticə də ondan ibarətdir ki, Silahlı Qüvvələrimizin hərbi qulluqçuları yüksək döyüş hazırlığı ilə yanaşı, həm də yüksək vətənpərvərliyə malikdirlər.

Ali Məclisin Sədri bir daha hərbi təlimin uğurla başa çatması münasibətilə təşkilatçılara, bütün şəxsi heyətə təşəkkür edib, çıxışını ölkə Prezidentinin fikirləri ilə tamamlayıb: *“Bizim ordumuz bizim qürurumuzdur”.*

Azərbaycan Respublikasının müdafiə naziri, general-polkovnik Zakir Həsənov təlimdə qarşıya qoyulan vəzifələri uğurla yerinə yetirdiklərinə görə şəxsi heyətləri təbrik edərək deyib: “Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev ordu quruculuğu sahəsində həyata keçirilən tədbirlər sırasında Naxçıvan Muxtar Respublikasının təhlükəsizliyinə xüsusi diqqət yetirir. Naxçıvan Muxtar Respublikasında ordu quruculuğu sahəsində görülən işlər isə Silahlı Qüvvələrin buradakı ordu, birləşmə və hissələrində xidmətin və döyüş hazırlığının yüksək səviyyədə təşkilinə imkan verir. Bu gün Əlahiddə Ümumqoşun Ordusu ən müasir silah, texnika və digər avadanlıqlarla təmin edilmişdir. Keçirilən təlim bunu bir daha təsdiq etdi. Muxtar respublikadakı bütün güc strukturlarının xüsusi təyinatlıları tərəfindən qarşıya qoyulan tapşırıqlar uğurla yerinə yetirildi, şəxsi heyət yüksək peşəkarlıq nümayiş etdirdi. Artıq düşmən Naxçıvan Əlahiddə Ümumqoşun Ordusunun, eləcə də Silahlı Qüvvələrin muxtar respublikadakı digər birləşmə və hissələrinin yüksək döyüş hazırlığından, müasir silah və texnika təminatından qorxur və bunu etiraf edir”.

Əlahiddə Ümumqoşun Ordusunun komandanı, general-leytenant Kərəm Mustafayev çıxış edərək deyib ki, təlimdə Naxçıvan Qarnizonu qoşunlarının xüsusi təyinatlı birləşmə və hissələri tam döyüşə hazır vəziyyətə gətirilib, bölmələr döyüş uzlaşması keçib və tapşırıqlar uğurla yerinə yetirilib. Xüsusi təyinatlıların fəaliyyət ardıcıllığının vahid qaydada qəbul edilməsində, eləcə də radiotexniki, radioelektron, məlumat, xüsusi və qoşun kəşfiyyatlarının aparılmasında əməli təcrübə qazanılıb. Kərəm Mustafayev təlimdə iştirak edən şəxsi heyət adından minnətdarlıq edib, bundan sonra da bütün əmr və tapşırıqların uğurla yerinə yetiriləcəyini bildirib.

Ali Məclisin Sədri təlimdə fərqlənən zabit, gizir və əsgərləri qiymətli hədiyyələrlə mükafatlandırıb.

Gizir Bəhruz Məmmədov və zabit Vüqar Məlikov minnətdarlıq edərək deyiblər ki, bu gün muxtar respublikada hərbi xidmət nümunəvi təşkil olunub. Hərbi hissələrin maddi-texniki təminatı, əsgərlərin məişət və xidməti şəraitinin yaxşılaşdırılması, eləcə də zabit-gizir ailələrinin yaşayışı üçün ardıcıl tədbirlər görülüb. Yaradılan şərait və bu cür təlimlərin keçirilməsi mübarizə əzmimizi və döyüş ruhumuzu daha da artırır. Əmin edirik ki, düşmənin istənilən təxribatının qarşısını almağa tam hazırıq.

Şəxsi heyət birlik və bərabərliyin ifadəsi olan “Hamı bir nəfər, bir nəfər hamı üçün” şüarını səsləndirib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov və Azərbaycan Respublikasının müdafiə naziri, general-polkovnik Zakir Həsənov xüsusi təyinatlıların təlim mərkəzində yaradılan şəraitlə maraqlanıb.

Bildirilib ki, təlim mərkəzində şəxsi heyətin yaşayışı, qidalanması və xidmətin aparılması üçün lazımi şərait var. Burada yataq yerləri, əşya və ərzaq anbarları, yeməkxana və məişət guşələri istifadəyə verilib. Görülən işlər istənilən hava şəraitində təlimlərin uğurla həyata keçirilməsinə imkan verir.

Ali Məclisin Sədri Naxçıvan Qarnizonu qoşunlarının birgə taktiki-xüsusi təlimlərinin bundan sonra da davam etdirilməsi və qarşılıqlı fəaliyyətin təşkili barədə müvafiq tapşırıqlar verib.

# İnsan alverinə və qaçaqmalçılığa qarşı mübarizəyə həsr olunan konfrans keçirilib

Oktyabrın 30-da Milli Məclisdə “İnsan alveri və qaçaqmalçılığa çoxsahəli yanaşmalar: Beynəlxalq və milli qanunvericilik və operativ baza” mövzusunda konfrans keçirilib.



AZƏRTAC xəbər verir ki, tədbir beynəlxalq transmilli mütəşəkkil cinayətlərin araşdırılması və insan alverinə məruz qalan şəxslərin müdafiəsi ilə bağlı beynəlxalq və regional müzakirələri və tərəfdaşlıqları genişləndirmək, insan alverinə və miqrantların qaçaqmalçılığına qarşı mübarizənin mürəkkəbliyini nəzərə alaraq bütün müvafiq iştirakçıları bir araya gətirməklə daha çox kompleks və inteqrasiya olunmuş çoxsahəli yanaşmaları təşviq etmək məqsədi daşıyır.

Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli tədbirin əhəmiyyətindən danışıb. Bildirib ki, son illər Milli Məclis həm insan alverinə qarşı mübarizə, həm də miqrasiya məsələlərinin tənzimlənməsi ilə bağlı beynəlxalq standartlara uyğun olan mükəmməl qanunvericilik bazası yaradıb.

Milli Məclis Sədrinin müavini Bahar Muradova qeyd edib ki, konfrans çərçivəsində adı çəkilən mövzuda istər Azərbaycanda, istər regionda, istərsə də bütün dünyada mövcud vəziyyət, bu vəziyyətin qarşımıza çıxardığı çətinliklər, eyni zamanda, bu illər ərzində əməkdaşlığa və tərəfdaşlığa əsaslanan fəaliyyətin müsbət nəticələri barədə fikir mübadiləsi aparılacaq və perspektivlərlə bağlı faydalı istiqamətlər müəyyənləşdiriləcək. Bahar Muradova dedi ki, Azərbaycan regionda özünəməxsus yeri, rolu olan, həm iqtisadi, həm də siyasi cəhətdən humanitar əlaqələrin intensivləşməsi baxımından özünün yeritdiyi siyasətə və onun nəticəsində verdiyi töhfələrə görə seçilən bir ölkədir.

Bahar Muradova qeyd etdi ki, Azərbaycanda faydalı əməkdaşlıq, tərəfdaşlıq, sülh, dialoq üçün gözəl şərait mövcuddur. Bununla yanaşı, ölkəmizin yerləşdiyi regiondan əməkdaşlığa, tərəfdaşlığa, sülhə, dialoqa qarşı çıxan dairələr öz maraqları üçün istifadə etməyə cəhd göstərirlər. Ona görə bizim bu tərkibdə toplaşmağımızın və hamı üçün vacib olan bu məsələnin müzakirəyə çıxarılmasının böyük əhəmiyyəti var. Azərbaycan bu istiqamətdə mükəmməl qanunvericiliyə, çoxillik təcrübəyə malikdir. Bu təcrübənin müsbət tərəflərini öyrənmək baxımından da bu konfransın böyük əhəmiyyəti var.

“Bu gün hamımız üçün əlamətdar gündür. 15 il bundan əvvəl BMT-nin müvafiq konvensiyası Azərbaycan parlamentində ratifikasiya olunub. Bu gün həm də bu ratifikasiyanın yubiley günü kimi də qəbul edilə bilər. Bu konvensiyanın və ondan irəli gələn protokolların üzərimizə qoyduğu öhdəliklər bizi daha ciddi əməkdaşlığa sövq edir. Hesab edirəm ki, bu əməkdaşlıq həm beynəlxalq təşkilatlar çərçivəsində çoxtərəfli və həm də ikitərəfli münasibətlər üçün çox faydalıdır. Biz parlamentarilər artıq 15 ildir Azərbaycanda insan alveri və miqrant qaçaqmalçılığı ilə bağlı görülən işlərin hesabatını hər il dinləyirik. Builki hesabat həm ötən il, həm də son 15 ildə görülən işlərə həsr olunub” - deyə Milli Məclis Sədrinin müavini qeyd etdi.

Bahar Muradova bildirdi ki, parlament bu məsələnin çox ciddi müzakirə olunduğu bir məkandır. Parlamentdə təmsil olunan müxtəlif siyasi qüvvələrin, müstəqil parlamentarilərin bu məsələdəki prinsipial mövqeyi görülən işlərin keyfiyyətinin yüksəlməsinə, əməkdaşlığa çox ciddi vəsilə olur. Bu illər ərzində Milli Məclisdə həm regionu, həm ölkəmizi, həm dünyanı narahat edən məsələlər çox ciddi müzakirə edilib və bundan irəli gələn qanunvericilik aktlarına dəyişikliklər və əlavələr olunub. “Biz bu təhlükəyə qarşı ona görə möhkəm əməkdaşlıq və tərəfdaşlıq etməliyik ki, bu qəbil cinayətlər insana, insan hüquqlarına qarşı cinayətlər sırasında ən qəddarıdır. Necə ola bilər ki, müasir dünyada insanlar digər qrup insanlar və ya dairələr tərəfindən alver hədəfinə, qurbana çevrilsinlər, alçaldıcı rəftara məruz qalsınlar, məcburi əməyə cəlb edilsinlər, insanların fundamental hüquqları pozulsun və dünya ictimaiyyəti buna laqeyd qalsın? Bu, qəbuledilməzdir. Lakin təəssüf ki, bu gün ayrı-ayrı regionlarda və ölkələrdə həm daxili ziddiyyətlər, həm də kənar təcavüzlər nəticəsində bu cür cinayətlərin miqyası genişlənməkdədir” - deyə Bahar Muradova vurğuladı.

Keçən həftə ölkəmizdə keçirilən Beynəlxalq Humanitar Forumu xatırladan Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin rəisi Vüsal Hüseynov bildirdi ki, forumda müzakirə edilən əsas məsələlərdən biri “Dayanıqlı inkişaf məqsədləri” ilə bağlı idi. Belə mövzuların müzakirəsi ölkəmizdə dayanıqlı inkişaf məqsədlərinə verilən qiymətin bir göstəricisidir.

Vüsal Hüseynov konfransın mövzusunun olduqca mühüm əhəmiyyət kəsb etdiyini söyləyərək diqqətə çatdırdı ki, miqrasiyanın tarixi qədimdir və bu baxımdan doğru yanaşma tətbiq edildikdə, inkişafa, yeniliyə töhfə verən nəticələr ortaya çıxır, hansısa doğru olmayan bir yanaşmanın tətbiq edilməsi isə çox ağır fəsadlara gətirib çıxara bilər. Dünyada bu gün təxminən 260 milyon miqrantın olması çox böyük miqrasiya probleminin olduğunu ortaya çıxarır. Ona görə də bu məsələ çoxtərəfli yanaşma tələb edir.

Xidmət rəisi qeyd etdi ki, miqrasiyanın əhatəsinin böyük olması cinayətkar qruplara qeyri-qanuni yolla gəlir əldə etmək üçün imkan yaradır. Dünyada geniş yayılan “Miqrant qaçaqmalçılığı” anlayışını artıq hər gün eşidirik. Beynəlxalq təşkilatlarda, mətbuatda bununla bağlı geniş müzakirələr aparıldığının şahidi oluruq. Bu proseslərə qarşı ölkəmizdə ciddi tədbirlər görülür və mübarizə aparılır.

Birləşmiş Millətlər Təşkilatının Azərbaycandakı rezident əlaqələndiricisi Qulam İshaqzai tədbirin vacibliyini qeyd edərək dedi ki, bu gün bütün dünya insan alveri və qaçaqmalçılıqla mübarizə aparır. “Hazırda təxminən 260 milyondan çox insanın miqrasiyasının şahidiyik. Onlar doğulduqları ölkələrdən kənarda yaşamağa məcburdurlar. Bu insanların sayı getdikcə artır” - deyə Qulam İshaqzai qeyd etdi. Bu sahədə xüsusi mexanizmlərin, protokolların, konvensiyaların mövcud olduğunu söyləyən Qulam İshaqzai bildirdi ki, bu proses düzgün şəkildə təşkil olunmalı və tənzimlənməlidir.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin İnsan Alverinə qarşı Mübarizə üzrə Baş İdarəsinin rəisi, polis general-mayoru Heydər Heydərov bildirdi ki, insan alveri əksər dünya dövlətləri və beynəlxalq təşkilatlar tərəfindən ciddi transmilli təhdidlərdən biri olaraq qəbul edir. Diqqətə çatdırıldı ki, insan alverinə qarşı qlobal səviyyədə aparılan mübarizənin nəticəsi göstərir ki, heç bir dövlət bu bəladan tam sığortalanmayıb və təkbaşına təsirli əks-tədbirlər görə bilmir. Problemin dərinləşməsində dünyanın əksər ölkələrində baş verən maliyyə böhranı, silahlı münaqişələrin coğrafiyasının böyüməsi, ucuz işçi qüvvəsinə olan tələbatın artması, tənzimlənməyən miqrasiya axınının genişlənməsi xüsusi rol oynayır. Bütün bunlar isə insan alverini kriminal şəbəkə üçün daha əlverişli və cəlbedici edir, məcburi əmək, dilənçilik, terrorçuluq məqsədilə istismar, orqan transplantasiyası kimi cinayətlərin arealının genişləndirilməsinə yeni imkanlar açır. Əksər dövlətlərin istintaq orqanlarının apardıqları araşdırmaların nəticələri də göstərir ki, insan alveri, o cümlədən qurbanların seçilməsi, təyinat ölkəsinə göndərilməsi, qarşılanması, yerləşdirilməsi, istismarı, əldə olunan gəlirlərin bölüşdürülməsi, bütövlükdə bu cinayətkar fəaliyyət əsasən transmilli mütəşəkkil cinayətkar birliklərin birbaşa nəzarəti və rəhbərliyi ilə idarə olunur.

Heydər Heydərov qeyd etdi ki, Azərbaycanda insan alveri ilə mübarizənin hüquqi müstəvidə həyata keçirilməsinə başlanıldığı 2004-cü ildən indiyənədək görülmüş qətiyyətli tədbirlərlə beynəlxalq cinayətkar şəbəkənin ölkəmizdə fəaliyyət göstərməsinin qarşısı alınıb, həmin müddətdə 1321 cinayət və 900-ə yaxın qurban aşkarlanıb, 538 şəxs məhkəmə məsuliyyətinə cəlb edilib. Bu gün Milli Fəaliyyət Planından irəli gələn mühüm tədbirlərin həyata keçirilməsinə Prezident İlham Əliyevin verdiyi böyük siyasi dəstək, insan alverinə şərait yaradan sosial problemlərin aradan qaldırılması, əhalinin rifah halının yaxşılaşdırılması üzrə aparılan hərtərəfli islahatlar və hüquq-mühafizə fəaliyyətinin gücləndirilməsinə yönəlmiş mühüm addımlar sözügedən əməllərin profilaktikasına və cinayət təqibinin ən yüksək şəkildə təşkil olunmasına, müvafiq təhdidlərə möhkəm sipər çəkməyə, vətəndaşlarımızın qanuni mənafelərini etibarlı müdafiə etməyə tam imkan verir.

Beynəlxalq Miqrasiya Təşkilatının (BMqT) Azərbaycandakı nümayəndəliyinin rəhbəri Serhan Aktoprak tədbirdə müzakirəyə çıxarılan mövzunun ölkələr üçün önəmindən danışdı. Bildirilib ki, bütün dünyada insan alverinə qarşı mübarizə sahəsində bir sıra irəliləyişlərin əldə olunmasına və hamılıqla bu sahədə göstərilən səylərə baxmayaraq, insan alveri bu gün geniş şəkildə yayılmaqdadır. 1990-cı illərin ortalarından etibarən BMqT və onun tərəfdaşları tərəfindən 100 min nəfərdən çox insana yardım edilib.

İnsan alverinin qloballaşma dövrünün ən dəhşətli beynəlxalq cinayətlərindən biri olduğunu söyləyən Serhan Aktoprak deyib: “Göstərdiyimiz birgə səylərə baxmayaraq, bu gün insan alveri hələ də mövcuddur. Gələcək səylərdə bu sahədə bərabərsizlik, ayrı-seçkiliyə qarşı mübarizə və vicdanlı istehlakın təşkili kimi sosial istiqamətdə olan məsələlərə diqqət edilməlidir”.

Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin əməkdaşlıq şöbəsinin rəhbər əvəzi Aleksandra Nerisanu bildirib ki, bu tədbir BMT-nin müvafiq konvensiyasının Azərbaycan parlamentində ratifikasiya edilməsinin 15-ci ildönümü ilə üst-üstə düşür. Diqqətə çatdırıldı ki, mütəşəkkil cinayətkarlıq getdikcə artır. Cinayətkarlar daha çox texnoloji irəliləyişlərdən istifadə edərək öz niyyətlərini yerinə yetirirlər. Bu, təbii ki, davamlı inkişaf məqsədlərinin yerinə yetirilməsi üçün böyük maneədir. İnsan alveri, xüsusilə ən böyük bəlalardan biridir.

Konfrans işini plenar sessiyalarla davam etdirib.

Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Məlahət İbrahimqızının moderatorluğu ilə “İnsan alverinə qarşı hərtərəfli və beynəlxalq mübarizə cəhdləri vasitəsilə miqrasiya hamı üçün” mövzusunda keçirilən plenar sessiyada müxtəlif məruzələr dinlənilib. Belə ki, Milli Məclisin deputatı Sahibə Qafarova “İnsan hüquqlarının pozulmasının qarşısının alınması və insan alverinə qarşı mübarizə sahəsində milli parlamentlərin birgə səyləri”, polis polkovniki Daxili İşlər Nazirliyi İnsan alverinə qarşı mübarizə üzrə baş idarənin rəis müavini Samir Zeynalov “Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizə sahəsində əldə olunan nəticələr”, Belarus Respublikası Milli Məclisinin Nümayəndələr Palatasının Beynəlxalq Əlaqələr üzrə Daimi Komissiyasının sədr müavini Korzh İvan Alekseyeviç “İnsan alverinə qarşı mübarizənin uğurlu icrasında parlamentlər arasında əməkdaşlıq”, Yunanıstan parlamentinin Bərabərlik, Gənclik və İnsan Hüquqları üzrə Xüsusi Daimi Komitəsinin insan alverinə qarşı mübarizəyə dair alt komitəsinin sədri xanım Afroditi Stampouli “Parlamentarlar hərəkətdə: insan alverinə qarşı mübarizə ilə birgə DİM-lərin təşviqi”, BMT-nin narkotiklər və cinayət üzrə təşkilatında cinayətin qarşısının alınması və cinayətlər üzrə ədliyyə mütəxəssisi xanım Hannah Stallard “İnsan alverinə qarşı mübarizə sahəsində cinayət istintaqlarının səmərəli şəkildə aparılması” mövzularında məruzələrlə çıxış ediblər.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin İnsan alverinə qarşı mübarizə üzrə baş idarəsinin şöbə rəisi Samir Qarayevin moderatorluğu ilə keçən digər sessiya “İnsan alverinə qarşı mübarizədə müasir səylər” mövzusuna həsr olunub. İnsan hüquqları üzrə Avropa Konvensiyası üzrə ekspert Könül Qasımova “İnsan alveri cinayətlərində effektiv ədliyyənin təmin edilməsi”, Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Çingiz Qənizadə “İnsan alveri - transmilli mütəşəkkil cinayət kimi”, Qırğızıstan parlamentində insan alverinə qarşı mübarizə üzrə işçi qrupunun sədri xanım Evgenia Strokova “İnsan alverinə qarşı mübarizə sahəsində beynəlxalq tərəfdaşlıq və əməkdaşlığın maksimal tətbiqi”, Türkmənistan parlamentində deputat Kerimquli Geldiyev “İnsan alverinə qarşı mübarizə, istintaqda istifadə olunan metodlar və miqrantların hüquqlarının müdafiəsi” mövzularında məruzələrlə çıxış ediblər.

Milli Məclisin Gənclər komitəsinin üzvü Şahin İsmayılovun moderatorluğu ilə keçirilən sessiya “Cari hüququn aliliyi sahəsində problemlər və görülən tədbirlər” mövzusuna həsr olunub. İtaliyalı senator Angela Anna Bruna Plarulli “Miqrant qaçaqçılığının qarşısının alınması üçün edilən təşəbbüslərin səmərəliliyi və mövcud çətinliklər”, Tacikistan parlamentinin deputatı Ahmatjan Qobilov “Mütəşəkkil cinayətkarlıq konvensiyası çərçivəsində ekstradisiya və qarşılıqlı hüquqi yardım vasitəsilə miqrant qaçaqçılığına qarşı mübarizədə beynəlxalq əməkdaşlıq”, Gürcüstan parlamentinin deputatı Ququli Maqradze “İnsan alveri və miqrant qaçaqçılığına qarşı mübarizədə Gürcüstanın yanaşması: müvəffəqiyyətlər və çətinliklər”, Dövlət Miqrasiya Xidmətinin baş idarə rəisi Vahid Qəhrəmanov “Miqrant qaçaqçılığına qarşı mübarizədə təşəbbüslərin səmərəliliyi və cari problemlər” mövzularında məruzələrlə çıxış ediblər.

Yunanıstan parlamentinin Bərabərlik, Gənclik və İnsan Hüquqları üzrə Xüsusi Daimi Komitəsinin insan alverinə qarşı mübarizəyə dair alt komitəsinin sədri xanım Afroditi Stampoulinin moderatorluğu ilə keçən sonuncu sessiya “İnsan alveri cinayətlərinin təqibi və istintaqı və miqrantların hüquqlarının müdafiəsi” mövzusuna həsr olunub. Moldova parlamentinin sosial müdafiə, səhiyyə və ailə komitəsinin rəhbəri xanım Valentina Buliga “Miqrasiya proseslərində miqrantların hüquqlarının müdafiəsi üçün vəzifələrin bölüşdürülməsi”, Belçika Krallığı parlamentinin deputatı Gülər Turan “Non refoulment - işgəncə, istismar və bu kimi cəzalara qarşı miqrantların müdafiəsi sahəsində dövlətlərin yanaşmaları”, amerikalı müstəqil ekspert Christopher Flood “İnsan alveri cinayətləri ilə mübarizə istintaqında hərtərəfli əməkdaşlığın effektivliyi”, Türkiyə Respublikası parlamentinin deputatı xanım Pakize Mutlu Aydemir “Miqrantların müdafiəsinə dair ədliyyə əməkdaşlığı”, Özbəkistan Respublikası parlamentinin deputatı Aybek Egamov “2017-2021-ci illər üzrə Özbəkistan Respublikasının İnkişaf Strategiyası” mövzularında məruzələrlə çıxış ediblər.

Sonra paralel qrup sessiyaların nəticələri ilə bağlı panel iştirakçılarının rəyləri dinlənilib. Təqdimat və müzakirələr olub, iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

2003 2018

# Sürətli inkişaf, müstəqil siyasət və qüdrətli dövlət quruculuğu mərhələsi



*Əvvəli 1-ci səh.*

Ulu öndər güclü dövlət ideyasına sadiq qalaraq ilk növbədə sosial problemlərin həlli sahəsində dövlətin rolunun artırılmasına xüsusi əhəmiyyət verirdi. Bir yandan inflyasiya, iqtisadiyyatın güclü böhran yaşaması, əvvəlki iqtisadi əlaqələrin dağılması və yenilərinin yaranmaması, bir yandan isə ölkəmizin zorla cəlb olunduğu Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi fonunda əhali yoxsulluq həddinə düşmüş, özünün minimal sosial tələbatlarını ödəmək imkanlarından məhrum olmuşdu. Təbii ki, cəmiyyət həyatının bütün sahələrində olduğu kimi, yenə də bütün yük sosial siyasətin başlıca subyektinin - dövlətin üzərinə düşürdü.

Yeni, kövrək addımlarını atan Azərbaycan özünün hədəflərini düzgün müəyyən etmişdi. Bu hüquqi aspektdə demokratik, hüquqi, iqtisadi aspektdə bazar münasibətlərinə rəvac verən, sahibkarlığı və çoxmülkiyyətçiliyi dəstəkləyən, sosial aspektdə isə hər kəsin layiqli həyat səviyyəsini təmin etməyi öhdəsinə götürən bir dövlət ideyası idi. Şübhəsiz ki, totalitar rejimdən çıxmış, uzun illər dövlətçilik ənənəsindən məhrum olmuş, iqtisadiyyatı dərin böhran keçirmiş bir ölkə üçün transformasiya prosesi asan və rahat olmayacaqdı. Bu mənada Heydər Əliyev məhz islahatlar yolunu seçmişdi.

Heydər Əliyevin həyata keçirdiyi sosial siyasətin iki əsas xarakterik cəhətini xüsusilə qeyd etmək yerinə düşərdi. Bunlardan biri sosial siyasətin dayanıqlı olması, ölkənin iqtisadi bazisinə əsaslanması, ikincisi isə onun mükəmməl və dünya təcrübəsində uğurla sınaqdan çıxmış normativ hüquqi bazaya söykənməsidir. Bu baxımdan Heydər Əliyevin sosial siyasətinin inkişaf tarixinə nəzər yetirsək görərik ki, ölkə iqtisadiyyatının tənəzzüldən çıxmasından, daxili sabitliyin təmin edilməsindən sonra sosial siyasət sahəsində əhəmiyyətli addımlar atılmışdır. Ayrı-ayrı kateqoriya şəxslərin sosial müdafiəsi üzrə müxtəlif qanunlar - "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında", "Çernobıl qəzasının ləğvində iştirak etmiş və həmin qəza nəticəsində zərər çəkmiş vətəndaşların statusu və sosial müdafiəsi haqqında", "Veteranlar haqqında" və s. qanunlar qəbul edildi, şəhid ailələrinin, qaçqınların, məcburi köçkünlərin, müharibə və 20 Yanvar əlillərinin, veteranların sosial təminatının yaxşılaşdırılması istiqamətində çoxsaylı fərman və sərəncamlar imzalandı.

Sosial siyasətin transformasiyası o zaman uğurlu hesab oluna bilər ki, elmi-nəzəri, iqtisadi əsaslara söykənsin, eyni zamanda sosial prioritetlər düzgün müəyyənləşdirilsin. Təhlillər göstərir ki, Heydər Əliyev sosial siyasətinin prioritetlərini pensiya islahatları, monetizasiya (güzəşt və imtiyazların müavinətlərlə əvəz edilməsi), yoxsulluğun azaldılması kimi məsələlər təşkil etmişdir.

### İlham Əliyevin idarəçilik konsepsiyası sosial ədalət prinsipini önə çıxarır

Ümummilli lider Azərbaycan xalqına son müraciətində İlham Əliyevin özünün siyasi varisi olduğunu bəyan edərək demişdir: "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm". Müraciətdən ötən illər bir daha təsdiq etdi ki, böyük öndər nə qədər haqlı imiş. Qədirbilən xalqımız 2003, 2008, 2013 və 2018-ci illərdə prezident seçkilərində Heydər Əliyev kursunun yaşamasına, davam etməsinə səs verdi. Bu mənada İlham Əliyevin siyasi kursuna Heydər Əliyev kursunun yaşaması və davamı kimi baxmaq lazımdır. Ulu öndərin irimiqyaslı neft-qaz layihələrinin gerçəkləşməsi və bu istiqamətdə ölkəmizə külli miqdarda maliyyə vəsaitlərinin daxil olması Heydər Əliyev tərəfindən başlanan islahatların, o cümlədən sosial islahatların daha da gücləndirilməsi, infrastrukturun yeniləşdirilməsi üçün şərait yaratdı.

Cəmiyyətdə sosial ədalətə nail olmadan ölkəni inkişaf yoluna çıxarmaq mümkün deyil. Sosial ədalət Azərbaycan cəmiyyətinin, Azərbaycan xalqının təbiətinə, ruhuna uyğundur. Ta qədimdən Azərbaycan xalqı ədalətə tərəfdar olub, ədaləti müdafiə edib. Fəxrlə deyə bilərik ki, sosial ədalətlilik prinsipi bu gün Prezident İlham Əliyevin həyata keçirdiyi siyasi xətdə daha inkişaf etmiş formada özünü göstərir. Ədalətlilik ölkənin sosial-iqtisadi inkişafından ədalətli şəkildə xalqa pay düşməsi, Azərbaycanın milli sərvətlərindən əldə olunan gəlirlərin insanlarımıza ədalətli şəkildə çatdırılmasıdır. Ədalətlilik eyni zamanda cəmiyyətdə bazar iqtisadiyyatının yaratdığı ziddiyyətlərin hansısa bir zümrəyə ziyan vurmasının qarşısının alınması deməkdir. Bu, Azərbaycan cəmiyyəti üçün olduqca əhəmiyyətli bir prinsipdir.

Bütün cəmiyyətlərin tarixi göstərir ki, ədalət prinsipi pozulduqda qarşıdurma meyilləri güclənir. Bu isə xaosa və anarxiyaya gətirib çıxara bilər. Ədalət prinsipinin təmin olunması islahatlardan keçir. Daimi islahatlar, inkişaf yolu ilə, həmçinin cəmiyyətdə insanların təbəqələşməsi fonunda müxtəlif siyasi və iqtisadi vasitələrlə sosial ədalətin təmin olunması bu gün ölkəmizdə uğurla gerçəkləşir. Sosial ədalət dedikdə hər bir ailənin, hər bir vətəndaşın rifahının yaxşılaşdırılması, cəmiyyətin idarəçiliyində hər kəsin iştirakının təmin edilməsi, azad iqtisadi münasibətlərin təminatı və bu kimi digər məsələlər nəzərdə tutulur. Azərbaycan Prezidenti İlham Əliyevin siyasətində bunlar açıq şəkildə özünü büruzə verir.



# Vətənə, xalqa sədaqət andının təntənəsi

## İlham Əliyevin Prezident səlahiyyətlərinin icrasına başlamasından 15 il ötür



### Regionların inkişafı diqqət mərkəzindədir

Prezident İlham Əliyevin modern sosial siyasətinin qloballığı və əhəmiyyəti ondadır ki, onun mövcud istiqamətləri var. Bu istiqamətlərdən biri regionların inkişafına nail olmaqla ölkədə sosial rifahın yüksəldilməsidir. Bir sözlə, İlham Əliyevin sosial-iqtisadi siyasətinin başlıca istiqamətlərindən biri də regionların inkişafına xüsusi diqqətin yetirilməsidir.

Vaxtilə daxili və xarici investisiyaların Bakı şəhərinə, onun infrastrukturunun yenilənməsinə cəlb edilməsi, regionlarda kommunal infrastrukturun tələblərə cavab verməməsi Bakı ilə regionlar arasında tamamilə fərqli bir həyat yaratmışdı. Hamı şəhərdə yaşamaq, işləmək istəyirdi, regionlardan əhali şəhərə miqrasiya etməyə başlamışdı. Belə bir tarixi məqamda Heydər Əliyevin neft strategiyasının gerçəkləşməsi və ölkəmizə valyuta axını regionların sosial-iqtisadi problemlərinin həlli üçün davamlı maliyyə resurslarını yaratdı. 2003-cü ilin seçkilərində hər bir vətəndaşın Prezidenti olacağına vəd verən İlham Əliyev "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramının (2004-2008-ci illər) təsdiq edilməsi haqqında" 11 fevral 2004-cü il tarixli fərman imzaladı. Qeyd edilən proqramın və regionların sosial-iqtisadi inkişafı ilə bağlı qəbul edilmiş digər sənədlərdə nəzərdə tutulmuş tədbirlərin icrası dövründə Azərbaycanın siması tamamilə dəyişdi. Proqram ölkənin sosial-iqtisadi inkişafında keyfiyyətcə yeni mərhələnin başlanğıcı oldu, qeyri-neft sektorunun davamlı inkişafına, yeni iş yerlərinin və müəssisələrin, o cümlədən istehsal və emal müəssisələrinin yaradılmasına, regionlarda kommunal, xidmət və sosial infrastruktur təminatının həcmi və keyfiyyətinin qaldırılmasına şərait yaratdı.

Bu işlərin davamı olaraq ölkə Prezidenti tərəfindən 2009-2013-cü və 2014-2018-ci illəri əhatə edən növbəti dövlət proqramları təsdiq olundu. Statistik göstəricilər ötən 15 ildə Azərbaycan iqtisadiyyatının inkişafını və dayanıqlığını bir daha təsdiq edir. Belə ki, bu illərdə ümumi daxili məhsul istehsalı real ifadədə 3,2 dəfə, o cümlədən qeyri-neft ÜDM-də 2,8 dəfə, sənaye məhsulu istehsalı 2,6 dəfə, o cümlədən qeyri-neft sənayesi 2,2 dəfə, əsas kapitala yönəldilmiş vəsaitlər 3 dəfə, o cümlədən tikinti-quraşdırma işləri 4,9 dəfə, kənd təsərrüfatı məhsulları istehsalı 1,7 dəfə, yükdaşımalar 2,1 dəfə, informasiya və rabitə xidmətləri 11,2 dəfə, pərakəndə ticarət dövriyyəsi 3,8 dəfə artıb. Bu dövrdə dövlət büdcəsinin gəlirləri 13,5 dəfə artıb. 2004-cü ildən 2018-ci ilin oktyabr ayının 1-dək ölkənin strateji valyuta ehtiyatları 28 dəfə artaraq 45 milyard ABŞ dollarını ötüb.

### Sosial siyasətin uğurla reallaşmasına xidmət edən göstəricilər

Azərbaycanda həyata keçirilən sosial-iqtisadi siyasətin mərkəzində vətəndaşların rifahının yaxşılaşdırılması dayanır və həyata keçirilən bütün tədbirlər məhz bu məqsədə xidmət edir. Dövlət başçısının qeyd etdiyi kimi: "Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı, onun qayğıları, rifahı, sağlamlığı və təhlükəsizliyi dayanır".

Ötən 15 ildə sosial sahədə həyata keçirilən islahatlar və məqsədyönlü tədbirlər əhalinin etibarlı sosial müdafiə sisteminin formalaşmasını təmin edib. Əhalinin sağlamlığının qorunması, təhsilin səviyyəsinin yüksəldilməsi, səmərəli məşğulluğunun təmin edilməsi və s. istiqamətlərdə sistemli tədbirlər bu gün də davam etdirilir, bu sahəyə yönəldilən vəsaitlərin həcmi ildən-ilə artırılır. Həyata keçirilən sosialyönümlü siyasətin nəticəsi olaraq orta aylıq əməkhaqqı 2003-cü ildəki 77,4 manatdan 2017-ci ildə 528,2 manatadək yüksəlib, əhalinin nominal gəlirləri 8,6 dəfə artıb, yoxsulluq səviyyəsi 5,4 faizədək, işsizlik səviyyəsi 5 faizədək azalıb.

Son 15 ildə 3000-dən çox məktəbdə, 500-dən çox məktəbəqədər təhsil müəssisəsində və 650-yə yaxın səhiyyə müəssisəsində tikinti, əsaslı təmir və yenidənqurma işləri həyata keçirilib.

İnsan kapitalının inkişafı məqsədilə "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində minlərlə Azərbaycan gənci dünyanın nüfuzlu ali təhsil müəssisələrində ölkəmiz üçün prioritet hesab olunan ixtisaslar üzrə təhsil alıblar.

Dövlət başçısı tərəfindən idmanın inkişafına göstərilən böyük diqqət və qayğı nəticəsində təkcə regionlarda 40-dan çox olimpiya idman kompleksi inşa olunub, ölkəmiz I Avropa Oyunları, İslam Həmrəylik Oyunları, "Formula-1" kimi mötəbər idman yarışlarına uğurla evsahibliyi edib. Bu gün Azərbaycan dünyada idman ölkəsi kimi tanınır, idman uğurlarımız yüksək qiymətləndirilir, idmançılarımız beynəlxalq idman yarışlarında böyük nailiyyətlər qazanırlar.

Əhalinin sosial müdafiəyə daha çox ehtiyacı olan hissəsinə, o cümlədən əlillərə, müharibə veteranlarına, aztəminatlı vətəndaşlara, qaçqın və məcburi köçkünlərə dövlət qayğısının nəticəsi olaraq onların mənzil və məişət şəraitinin yaxşılaşdırılmasına xüsusi diqqət yetirilib, 6000-dən çox əlil və şəhid ailəsi mənzillə təmin olunub. Dövlət Neft Fondundan və digər mənbələrdən ayrılmış vəsait hesabına bütün sosial-texniki infrastruktura malik 97 müasir qəsəbə salınıb, 52,3 min qaçqın və məcburi köçkün ailəsinin mənzil-məişət şəraiti yaxşılaşdırılıb.

Ölkəmizdə aztəminatlı əhaliyə ünvanlı sosial yardımların verilməsindən başlamış əlillərin, müharibə veteranlarının, qaçqın və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılmasına, yoxsulluğun azaldılmasına qədər bütün sosial müdafiə tədbirləri müvəffəqiyyətlə həyata keçirilir. Azərbaycanın sürətli iqtisadi inkişafı və büdcə gəlirlərinin davamlı artımı sosial xərcləri də müntəzəm artırmağa, yoxsulluğun səviyyəsini son 15 ildə dəfələrlə aşağı salmağa, sosial təminat sistemini möhkəmləndirməyə imkan yaratmışdır.

### Məqsədli dövlət proqramları ilə inkişaf

Regionların sosial-iqtisadi inkişafı dövlət proqramları 15 ildə ölkə iqtisadiyyatının daha intensiv inkişaf etməsini ehtiva etməklə yanaşı, nəticə etibarilə əhalinin sosial müdafiəsinin getdikcə güclənməsinə xidmət edib.

Sonrakı illərdə də dövlət başçısı tərəfindən əhalinin etibarlı sosial müdafiəsinə xidmət edən çoxsaylı fərman və sərəncamlar verilmiş, qəbul olunmuş bir çox dövlət proqramlarında bu məsələ hər zaman əsas planda yer almışdır. Buna misal olaraq "Azərbaycan Respublikasında yeni ümumtəhsil məktəblərinin tikintisi, mövcud məktəblərin əsaslı təmiri və müasir tədris avadanlıqları ilə təmin olunmasına dair Proqram (2005-2009-cu illər)", "Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin informasiya və kommunikasiya texnologiyaları ilə təminatı Proqramı", "Azərbaycan Respublikasında məktəbəqədər təhsilin yeniləşdirilməsi Proqramı (2007-2010-cu illər)", "Azərbaycan Respublikasında xüsusi qayğıya ehtiyacı olan (sağlamlıq imkanları məhdud) uşaqların təhsilinin təşkili üzrə İnkişaf Proqramı", "Xüsusi istedada malik uşaqların (gənclərin) yaradıcılıq potensialının inkişafı üzrə Dövlət Proqramı (2006-2010-cu illər)", "Azərbaycan Respublikasında dövlət uşaq müəssisələrindən uşaqların ailələrə verilməsi (De-institusionalizasiya) Dövlət Proqramı (2006-2015-ci illər)", "Texniki-peşə təhsilinin inkişafı Dövlət Proqramı (2007-2010-cu illər)", "2009-2013-cü illərdə Azərbaycan Respublikasının ali təhsil sistemində islahatlar üzrə Dövlət Proqramı", "Azərbaycan Respublikasının Məşğulluq Strategiyası (2006-2015-ci illər)", "2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişafı Dövlət Proqramı", "2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı", hazırda icra olunan "2014-2020-ci illərdə Azərbaycan Respublikasında pensiya təminatı sisteminin islahatı Konsepsiyası", gənclərlə bağlı dövlət proqramlarını və digər vacib sənədləri göstərmək olar.

"Xroniki böyrək çatışmazlığı üzrə Tədbirlər Proqramı, "Hemofiliya və talassemiya irsi qan xəstəlikləri üzrə Dövlət Proqramı", "Şəkərli diabet üzrə Dövlət Proqramı", "Onkoloji xəstələrin şiş əleyhinə əsas preparatlarla təminatı üzrə Tədbirlər Proqramı", "Yoluxucu xəstəliklərin immunoprofilaktikasına dair Tədbirlər Proqramı", "Ana və uşaqların sağlamlığının qorunması üzrə Dövlət Proqramı", "Qanın, qan komponentlərinin donorluğu və qan xidmətinin inkişafına dair Dövlət Proqramı" kimi sənədlər sosial siyasətin uğurla reallaşmasına xidmət edib.

### Sosial problemləri yaradan səbəblər aşkarlanır

İlham Əliyevin sosial siyasətində nəticəyə deyil, problemləri yaradan səbəblərə qarşı mübarizəyə diqqət yetirilir və bu səbəbləri aradan qaldırmaq üçün tədbirlər həyata keçirilir, müvafiq dövlət proqramları qəbul olunur. Problemlərə bu cür kompleks yanaşma, onları doğuran səbəblərin aradan qaldırılması mümkün neqativ nəticələrin baş verməsinin də qarşısını alır. Azərbaycan Respublikasında əhalinin ekoloji tələblərə cavab verən keyfiyyətli içməli su ilə təminatının yaxşılaşdırılması istiqamətində dövlət tərəfindən keçirilmiş bir sıra tədbirlər nəticəsində onlarla yaşayış məntəqəsində modul tipli sutəmizləyici qurğular quraşdırılmışdır ki, bu da insanların sağlamlığının qorunması, eləcə də böyrək çatışmazlığı xəstəliklərinin baş verməsinin azaldılmasına imkan verəcəkdir.

Ölkəmizdə sosial sahənin inkişafı barəsində danışarkən Heydər Əliyev Fondunun fəaliyyətini xüsusi qeyd etməmək mümkün deyildir. Respublikamızın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESCO və ISESCO-nun xoşməramlı səfiri xanım Mehriban Əliyevanın əməyi sayəsində sosial həyatımızın ən müxtəlif sahələrində - elm, təhsil, mədəniyyət, səhiyyə və s. sahələrdə ciddi uğurlar əldə olunmuşdur. Heydər Əliyev Fondunun "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi, şəkərli diabet xəstəliyi olan uşaqlara yardım edilməsi, irsi qan xəstəliklərindən olan talassemiya və hemofiliya xəstəliklərinin müalicəsi, qan təminatının yaradılması, milli musiqimizin inkişafı ilə bağlı fəaliyyəti həyatımızda özünün ciddi nəticələrini göstərməkdədir. Heydər Əliyev Fondunun ölkə miqyasında və ölkəmizin hüdudlarından kənarda həyata keçirdiyi layihə və proqramlar günümüzün ritmi ilə səsləşən ən həssas məsələlərə həsr olunmuş, öz səmərəli fəaliyyəti ilə sosial problemlərin həllinə vətəndaş cəmiyyətinin gözəl nümunəsini bəxş etmişdir.

### Məşğulluq sosial təminatın əsas elementlərindən biri kimi

Ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra mövcud iqtisadi tənəzzülün dayandırılması, torpaq islahatlarının həyata keçirilməsi, kənd təsərrüfatında yeni mülkiyyət formalarının meydana çıxması, aqrar istehsalın stimullaşdırılması əhalinin məşğulluğunun artmasına stimul verməklə yanaşı, ölkədaxili və xaricə miqrasiyanın azalmasına müsbət təsir göstərdi. Ötən 15 ildə isə Azərbaycanda həyata keçirilən dövlət proqramlarının nəticəsi olaraq əhalinin məşğulluğunun təmin edilməsi və həm də əhalinin kəndlərdən şəhərə axınının, həmçinin iş dalınca xarici ölkələrə üz tutmasının qarşısının alınması istiqamətində böyük uğurlar əldə olunub.

Ötən dövrdə regionlarda iqtisadiyyatın inkişafını sürətləndirən tədbirlərin, bununla bağlı dövlət dəstəyinin istiqamətlərinin müəyyən edildiyi proqramların təsdiqi ölkəmizin inkişafında yeni bir mərhələnin başlanğıcı olmuş və onun uğurla icrası nəticəsində Azərbaycanın, demək olar ki, bütün bölgələrində davamlı olaraq əməktutumlu, rəqabətqabiliyyətli yeni istehsal müəssisələri, xidmət sahələri istifadəyə verilmiş, ölkənin hərtərəfli potensialı hərəkətə gətirilmişdir. Beş ildən bir qəbul olunan regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramları ölkənin iqtisadi inkişafının mühüm təkanvericisi rolunu oynamaqla vətəndaşların sosial rifahının yüksəldilməsində müstəsna rol oynamışdır. Nəzərdə tutulan tədbirlərin həyata keçirilməsinin nəticəsi kimi regionlarda tarazlı inkişafla yanaşı, sosial məsələlər də yoluna qoyulmuş, əhalinin məşğulluğu və real gəlirləri artmış, yoxsulluğun səviyyəsi əhəmiyyətli dərəcədə aşağı düşmüşdür. Ümumiyyətlə, ölkənin sosial-iqtisadi inkişafı sahəsində həyata keçirilən məqsədyönlü siyasət nəticəsində son 15 ildə ölkəmizdə 2 milyondan çox iş yeri açılmışdır ki, bunun da 75 faizi regionların payına düşür.

### Əlilliyin artımının qarşısı alınıb

Azərbaycanda reallaşan sosial siyasət nəticəsində cəmiyyətin əmək qabiliyyətini itirmiş üzvləri üçün etibarlı sosial təminatlar sistemi yaradılıb, əlillərin və sağlamlıq imkanları məhdud uşaqların sosial müdafiəsi təmin olunub. Ölkədə əlillərin sosial müdafiəsi ilə bağlı müvafiq proqram hazırlanıb həyata keçirilib. Proqramda əlilliyin qarşısının alınması, əlillərin reabilitasiyası və sosial müdafiəsi haqqında qanunun müddəaları öz əksini tapmışdı. Ulu öndər Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olanların ailələrinə, fiziki sağlamlığını itirən insanlara, onların problemlərinə də böyük həssaslıqla yanaşırdı, maliyyə imkanlarımızın hələ aşağı olduğu 1997-2003-cü illərdə 508 əlil ailəsi mənzillə, 138 ailə isə fərdi evlə təmin olunmuşdu. 1998-2002-ci illərdə 1090 nəfər əlilə minik avtomobili verilib.

Ümummilli lider Heydər Əliyev tərəfindən əlilliyi olan insanlara diqqət və qayğının 2003-cü ildən etibarən Prezident İlham Əliyev tərəfindən yüksək səviyyədə davam etdirilməsi bu təbəqələrdən olan vətəndaşların rifah halının yaxşılaşmasına xidmət edən tədbirlərin ilbəil güclənməsinə şərait yaratmışdır. "Hər bir vətəndaş bizim üçün qiymətlidir, dəyərlidir. Fiziki cəhətdən qüsurlu insanlar isə xüsusi qayğıya layiqdirlər və biz çalışırıq ki, bunu edək" deyən dövlət başçısının bu sözləri əlilliyi olan şəxslərin sosial müdafiəsinin daim gücləndirilməsində öz əməli təsdiqini tapır.

Ötən dövrdə Azərbaycanda dövlət tərəfindən bu qəbildən olan insanların sosial rifahının yüksəldilməsi istiqamətində mühüm addımlar atılıb, bu insanların müalicəsi, reabilitasiyası, sosial təminatı ildən-ilə yaxşılaşıb. Xüsusən bu dövrdə bərpa-müalicə şəbəkəsinin bölgələr üzrə genişləndirilməsi təmin olunub. Belə ki, bu illərdə Naxçıvan, Şirvan, Lənkəran, Şəki, Sumqayıt, Naftalan, Xaçmaz, Yevlax şəhərlərində regional bərpa mərkəzləri inşa etdirilərək istifadəyə verilib. Həmçinin sağlamlıq imkanları məhdud uşaqların tibbi-sosial reabilitasiyası işinin gücləndirilməsi məqsədilə Bakı və Naxçıvan şəhərlərində uşaq bərpa mərkəzləri yaradılıb. Hazırda Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində olmaqla ölkənin paytaxtında və bölgələrində yerləşən 14 bərpa-müalicə müəssisəsi fəaliyyət göstərir. Ölkəmizdə əhalinin sağlamlığının qorunması, səhiyyə sisteminin təkmilləşməsi sahəsində geniş vüsət alan işlərin, yeni müalicə-diaqnostika və bərpa müəssisələrinin yaradılmasının daha bir müsbət nəticəsi kimi respublikada əlilliyin artım tempinin qarşısı alınıb, reabilitasiya göstəricisi isə 6 faizə qədər yüksəlib.

Son illərdə Azərbaycanda əlillərin mənzillə təminatı sahəsində də mühüm tədbirlər həyata keçirilib. Dövlət başçısının 2014-cü il 20 iyun tarixli sərəncamına əsasən isə 2014-cü il yanvar ayının 1-dək mənzil növbəsinə dayanmış 5731 nəfər Qarabağ əlili və şəhid ailəsinin mənzil və ya fərdi evlə təmin edilməsi nəzərdə tutulur.

Heydər Əliyev Fondu tərəfindən də son illər həyata keçirilən sosial layihələri nəticəsində əlillərin sosial müdafiəsi ilə bağlı mühüm irəliləyişlər əldə edilib, bu sahədə yeni istiqamətlər, prioritetlər və məqsədlər müəyyənləşdirilib. Fondun əlilliyi olan şəxslərlə bağlı fəaliyyətinin əsas istiqamətləri onların müalicəsi və təhsil hüquqlarının reallaşdırılmasıdır. Bu mənada Mehriban Əliyevanın təşəbbüsü, diqqət və qayğısı nəticəsində bir çox əlil evləri əsaslı təmir olunub, müasir standartlara tam uyğun olan yeni bərpa mərkəzləri yaradılıb.

*Azərbaycan xalqı əmindir ki, Prezident İlham Əliyevin ulu öndər Heydər Əliyevin inkişaf strategiyasından qaynaqlanan uzaqgörən, sistemli və qətiyyətli sosial-iqtisadi inkişaf siyasəti bundan sonra da davam etməklə qarşıda duran vəzifələrin uğurla yerinə yetirilməsini, ölkəmizin inkişafının daha da sürətlənməsini və nəticədə xalqımızın sosial rifahının davamlı olaraq yaxşılaşmasını təmin edəcək.*

**Hadi RƏCƏBLİ,**
***Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri, siyasi elmlər doktoru, professor***

# Heydər Əliyev Fondunun təşkilatçılığı ilə Londonda Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunan tədbir keçirilib

Böyük Britaniyanın paytaxtı Londonda Heydər Əliyev Fondunun və Azərbaycanın bu ölkədəki səfirliyinin təşkilatçılığı ilə Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyinə həsr olunan rəsmi qəbul keçirilib.





AZƏRTAC xəbər verir ki, tədbirdə Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov, İngiltərə-Azərbaycan Cəmiyyətinin həmsədri Nərgiz Paşayeva, Böyük Britaniyada akkreditə olunmuş diplomatik korpusun, dövlət qurumlarının və parlamentin nümayəndələri, iş adamları iştirak ediblər.

Azərbaycanın Böyük Britaniyadakı səfiri Tahir Tağızadə çıxış edərək müsəlman Şərqində ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin yaranma tarixi və fəaliyyəti dövründə əldə etdiyi nailiyyətlər barədə məlumat verib. Qeyd edib ki, cəmi 23 ay ömrü olan respublika qısa müddətdə ciddi uğurlara imza atıb, dünyanın aparıcı dövlətləri ilə diplomatik münasibətlər qurub, qadınlara ilk dəfə seçki hüququ verib. Diplomat 1991-ci ildə müstəqilliyini bərpa edən respublikamızın bu gün dünyada uğurlu daxili və xarici siyasət yürüdən, inkişaf edən demokratik dövlət kimi tanındığını vurğulayıb.

Azərbaycanla Böyük Britaniya arasında siyasi, iqtisadi, mədəni və digər sahələrdə sürətlə inkişaf edən əlaqələrdən danışan Tahir Tağızadə Böyük Britaniyanın Azərbaycan üçün etibarlı tərəfdaş olduğunu qeyd edib, hər iki ölkə arasında son 27 il ərzində möhkəm əməkdaşlığın qurulduğunu diqqətə çatdırıb.

Təhsil sahəsində əməkdaşlıqdan bəhs edən səfir Oksford Universiteti nəzdində fəaliyyət göstərən Nizami Gəncəvi Mərkəzinin uğurlarından, o cümlədən akademik Nərgiz Paşayevanın 2018-ci il oktyabrın 11-də Oksford Universitetinin Kansleri Lord Patten Barnesin rəhbərlik etdiyi Xeyriyyəçilər Komitəsinin üzvlüyünə təntənəli surətdə qəbul olunmasından söhbət açıb. O həmçinin Oksford Universiteti rəhbərliyinin və Elmi Şurasının qərarı ilə Azərbaycanı və Qafqazı öyrənən Britaniya Fondunun adının Kanslerin Xeyriyyəçilər Komitəsinin daimi üzvü kimi dünya şöhrətli alimlər, ictimai xadimlər və nüfuzlu təşkilatlarla yanaşı, XVII əsrə aid Klarendon binasının xatirə lövhəsinə həkk olunmasından danışıb.

Tədbirdə Azərbaycanın müxtəlif beynəlxalq platformalarda Böyük Britaniya ilə birgə fəaliyyət göstərdiyi bildirilib, Prezident İlham Əliyevin Londona son səfərinin ikitərəfli əlaqələrin inkişafına töhfə verdiyi vurğulanıb.

Böyük Britaniya hökumətinin Lordlar Palatasının üzvü, Britaniya Baş nazirinin Azərbaycan üzrə ticarət elçisi Baronessa Emma Nikolson da tədbir iştirakçılarını və xalqımızı Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyi münasibətilə təbrik edib. O, 100 il əvvəl Şərqdə ilk demokratik respublikanın qurulmasını mühüm tarixi hadisə kimi səciyyələndirib. Azərbaycan Xalq Cümhuriyyətinin nailiyyətləri arasında qadınlara səsvermə hüququnun verilməsini xüsusi vurğulayan Baronessa Emma Nikolson ölkələrimiz arasındakı ikitərəfli münasibətlərin inkişaf səviyyəsindən məmnunluğunu bildirib. Qeyd edib ki, Azərbaycanla Böyük Britaniya arasında təkcə enerji üzrə deyil, təhsil, mədəniyyət, hərbi və digər sahələrdə də münasibətlər inkişaf edir. İkitərəfli diplomatik əlaqələrə nəzər salan Lordlar Palatasının üzvü ölkəsinin Azərbaycanla bütün sahələrdə əməkdaşlığının səviyyəsindən razı olduğunu bildirib və bu əlaqələrin daha da genişlənəcəyinə ümid etdiyini vurğulayıb. Azərbaycan Prezidentinin Londona son səfərini xüsusi qeyd edən xanım Nikolson bu səfərin ikitərəfli əlaqələrin inkişafına töhfə verəcəyinə əminliyini ifadə edib.



Tədbir çərçivəsində Heydər Əliyev Fondu tərəfindən təşkil edilən sərgidə Azərbaycan Xalq Cümhuriyyətinin tarixinə dair foto və sənədlər, video və audiomateriallar, Azərbaycan Xalq Cümhuriyyətinin tarixinə həsr olunan sənədli film nümayiş etdirilib, musiqi proqramı təqdim olunub.

Baronessa Emma Nikolson AZƏRTAC-a müsahibəsində deyib:

- Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinin Londonda qeyd edilməsi çox mühüm hadisədir. Biz Azərbaycanda demokratiyanın təntənəsinə yığışmışıq. Bu gün Azərbaycanla Böyük Britaniya arasında mövcud əlaqələr yüksək səviyyədədir. Bir daha təbriklərimi çatdırıram.

Kensington və Çelsi bələdiyyəsinin müşaviri Gerard Hargreaves qeyd edib:

-Təmsil etdiyim qurum adından Azərbaycanı 100 illik yubiley münasibətilə təbrik edirəm. Bu tədbirdən zövq almaqla yanaşı, ölkənizin tarixi haqqında bir sıra məlumatlar öyrəndim. Burada nümayiş olunan filmdə Azərbaycanın coğrafiyası, mədəniyyəti, zəngin təbiəti haqqında ətraflı məlumat verilib. Bir daha Azərbaycan xalqını təbrik edirəm.

Britaniya parlamentinin Lordlar Palatasının üzvü Devid Çarlz Evans bildirib:

-Burada olmaq böyük şərəfdir. Azərbaycan xalqını bu önəmli gün münasibətilə təbrik edirəm. Ölkənizə növbəti 100 illikdə də uğurlu inkişaf arzulayıram. Londonda Azərbaycanla bağlı keçirilən tədbirlərdə mütəmadi iştirak etməkdən şərəf duyuram. Ölkənizdə də burada olduğum üçün çox şadam. Möhtəşəm tədbirdir.

Lordlar Palatasının digər üzvü Con Devid Kilkluni deyib:

- Mən 20 ildir ki, Azərbaycanın dostu olmaqdan şərəf duyuram. Həm Avropa Parlamentində, həm də Avropa Şurasında çalışdığım illərdə həmişə Azərbaycanın haqq səsini müdafiə etmişəm. Ölkəniz Avropa Şurasına üzv qəbul olunanda mən bütün proseslərin bilavasitə iştirakçısı idim. Ondan sonra ölkənizdə mütəmadi səfərlərdə olmuşam. İllər ərzində Azərbaycanın böyük inkişaf yolu keçdiyini görmək çox xoşdur. Ölkənizlə bağlı xüsusi məqamı qeyd etmək istərdim: Azərbaycanda dini tolerantlıq yüksək səviyyədədir. Bu, dünyaya nümunə ola biləcək bir məqamdır.

Milli Məclisin Azərbaycan-Böyük Britaniya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Cavanşir Feyziyev bildirib:

-Bugünkü tədbir Heydər Əliyev Fondunun təşkilatçılığı ilə keçirilən çoxsaylı tədbirlərdən biridir. Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunmuş rəsmi qəbul və sərgi Cümhuriyyətimizin tarixi ilə bağlı bütün məlumatları Britaniya ictimaiyyətinə çatdırılması baxımından mühüm əhəmiyyət kəsb edir.

# Azərbaycan, Türkiyə və İran xarici işlər nazirlərinin İstanbulda üçtərəfli görüşü olub

Oktyabrın 30-da İstanbulda Azərbaycan, Türkiyə və İran xarici işlər nazirlərinin VI üçtərəfli görüşü keçirilib.

AZƏRTAC xəbər verir ki, nazirlər Elmar Məmmədyarov, Mövlud Çavuşoğlu və Məhəmməd Cavad Zərif İstanbulun tarixi Dolmabaxça sarayında bir araya gəliblər. Görüşdə İstanbul Bəyannaməsi imzalanıb.

Sonra nazirlər görüşün yekunları ilə bağlı mətbuat konfransı keçiriblər.

Türkiyə Cümhuriyyətinin quruluşunun 95-ci ildönümü münasibətilə açılışı olan İstanbul Hava Limanındakı mərasimdə iştirak etdiklərinə görə həmkarlarına təşəkkürünü ifadə edən nazir Mövlud Çavuşoğlu üçtərəfli görüşdə qəbul olunan İstanbul Bəyannaməsi barədə məlumat verdi. Nazir diqqətə çatdırıb ki, bəyannamədə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn normaları çərçivəsində, Azərbaycanın ərazi bütövlüyü şərti ilə həll olunmasının vacibliyi, eləcə də üç ölkə arasında əməkdaşlıq əlaqələrinin genişləndirilməsi məsələləri əksini tapıb. Bundan başqa, Türkiyə və İranın Bakı şəhərinin 2025-ci ildə ümumdünya sərgisinə namizədliyini tam şəkildə dəstəklədiyini qeyd edən nazir əminliklə bildirib ki, Azərbaycan bu istəyinə nail olacaqdır.

İstanbul Hava Limanının açılışı münasibətilə təbriklərini çatdıran nazir Elmar Məmmədyarov Azərbaycanın ərazi bütövlüyünü dəstəklədikləri üçün hər iki həmkarına səmimi minnətdarlığını ifadə edib. Üç ölkə arasında həyata keçirilən enerji və nəqliyyat dəhlizlərinin əhəmiyyətindən danışan azərbaycanlı nazir bildirib ki, yaxın gələcəkdə Astara (İran)-Rəşt (İran) dəmir yolunun tikintisi gerçəkləşərsə bu, Bakı-Tbilisi-Qars, və Şimal-Cənub dəmir yolları üçün daha böyük perspektivlər yaradacaq.

Görüşün əhəmiyyəti barədə fikir və mülahizələrini bölüşən nazir Məhəmməd Cavad Zərif qeyd edib ki, ölkəsi Dağlıq Qarabağ probleminin beynəlxalq hüququn normaları çərçivəsində həllinə tərəfdardır. Azərbaycan, Türkiyə və İran əməkdaşlıq əlaqələrinin siyasi iradə nəticəsində ortaya çıxdığını deyən iranlı nazir diqqətə çatdırıb ki, münasibətlərin inkişafı bölgədə sülhə, sabitliyə və inkişafa böyük töhfədir.

Nazirlər jurnalistləri maraqlandıran suallara cavablandırıblar.

Qeyd edək ki, nazirlər VII görüşün İranda keçirilməsi barədə razılıq əldə ediblər.

# Azərbaycan ilə İsveçrə arasında təhsil sahəsində əməkdaşlığın inkişaf perspektivləri müzakirə edilib

İsveçrə Konfederasiyasının təhsil, araşdırma və innovasiya üzrə dövlət katibi Mauro Dell'Ambrogionun rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizə səfəri çərçivəsində Təhsil Nazirliyində olub.




AZƏRTAC xəbər verir ki, görüşdə təhsil naziri Ceyhun Bayramov və İsveçrə Konfederasiyasının təhsil, araşdırma və innovasiya üzrə dövlət katibi Mauro Dell'Ambrogio iki ölkə arasında ali və peşə təhsili sahəsində əlaqələrin cari vəziyyəti, həyata keçirilən islahatlar və inkişaf perspektivləri barədə fikir mübadiləsi aparıblar.

Görüşün sonunda təhsil naziri Ceyhun Bayramov ilə İsveçrə Konfederasiyasının təhsil, araşdırma və innovasiya üzrə dövlət katibi Mauro Dell'Ambrogio arasında təhsil sahəsində əməkdaşlığa dair birgə bəyanat imzalanıb.

Qeyd edək ki, Mauro Dell'Ambrogio Fəxri xiyabanda ümummilli lider Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil qoyub. Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın məzarı üzərinə gül dəstələri düzüb. Sonra İsveçrənin dövlət katibi Şəhidlər xiyabanına gələrək, Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini anıb, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyub. Xatırladaq ki, Mauro Dell'Ambrogio Azərbaycana səfəri çərçivəsində ADA Universitetini ziyarət edib və rektor Hafiz Paşayev ilə görüşüb. O həmçinin Azərbaycan-Fransız Universiteti (UFAZ) ilə tanış olub və bu universitetin tələbələri üçün "İsveçrə: təhsildən innovasiyaya" mövzusunda məruzə ilə çıxış edib.

# Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin 2018-ci ilin noyabr ayında şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəli

| Mərkəzi icra hakimiyyəti orqanı | Qəbul günü | Qəbulun keçirildiyi şəhər | Əhatə olunan şəhər və rayonlar |
|---|---|---|---|
| **Ceyhun Bayramov**<br>**Təhsil naziri** | 05 | Saatlı | Saatlı, Şirvan, Sabirabad, İmişli |
| **Fikrət Məmmədov**<br>**Ədliyyə naziri** | 08 | Balakən | Balakən, Zaqatala, Qax |
| **Arzu Rəhimov**<br>**Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi** | 15 | Masallı | Masallı, Cəlilabad, Biləsuvar |
| **Sahil Babayev**<br>**Əmək və əhalinin sosial müdafiəsi naziri** | 16 | Şəmkir | Şəmkir, Gədəbəy, Tovuz, Ağstafa, Qazax |
| **Ramin Quluzadə**<br>**Nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri** | 16 | Bərdə | Bərdə, Yevlax, Tərtər, Ağdam |
| **Oqtay Şirəliyev Səhiyyə naziri** | 16 | Tərtər | Tərtər, Bərdə, Goranboy, Ağdam |
| **Məleykə Abbaszadə**<br>**Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri** | 16 | Xızı | Xızı, Sumqayıt, Abşeron, Siyəzən, Qubadlı, Zəngilan, Şuşa |
| **İnam Kərimov**<br>**Kənd təsərrüfatı naziri** | 17 | Tərtər | Tərtər, Bərdə, Ağcabədi, Ağdam, Laçın |
| **Zakir Qaralov**<br>**Baş prokuror** | 23 | Tərtər | Tərtər, İmişli, Ağcabədi, Ağdam, Beyləqan, Füzuli, Laçın, Xocavənd |
| **Azad Rəhimov**<br>**Gənclər və idman naziri** | 23 | Göyçay | Göyçay, Mingəçevir, Yevlax, Ağdaş, Bərdə, Tərtər, Kürdəmir, Ucar, Zərdab, Ağsu |
| **Şahin Mustafayev**<br>**İqtisadiyyat naziri** | 23 | Ağstafa | Ağstafa, Qazax, Tovuz |
| **Kərəm Həsənov**<br>**Əmlak Məsələləri Dövlət Komitəsinin sədri** | 23 | Salyan | Salyan, Şirvan, Sabirabad, Saatlı |
| **Ramil Usubov**<br>**Daxili işlər naziri** | 24 | Sumqayıt | Sumqayıt, Abşeron, Qobustan, Qubadlı, Zəngilan |
| **Mikayıl Cabbarov**<br>**Vergilər naziri** | 26 | Lənkəran | Lənkəran, Astara, Lerik, Masallı, Yardımlı, Cəlilabad, Biləsuvar |
| **Mübariz Qurbanlı**<br>**Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri** | 27 | İmişli | İmişli, Saatlı, Sabirabad, Beyləqan, Xocavənd |
| **Muxtar Babayev**<br>**Ekologiya və təbii sərvətlər naziri** | 30 | Tovuz | Tovuz, Ağstafa, Qazax, Şəmkir, Gədəbəy, Daşkəsən, Göygöl, Samux |
| **Əbülfəs Qarayev**<br>**Mədəniyyət naziri** | 30 | Cəlilabad | Cəlilabad, Lənkəran, Astara, Lerik, Masallı, Yardımlı |
| **Kəmaləddin Heydərov**<br>**Fövqəladə hallar naziri** | 30 | İmişli | İmişli, Saatlı, Sabirabad, Hacıqabul |
| **Səfər Mehdiyev**<br>**Dövlət Gömrük Komitəsinin sədri** | 30 | Sumqayıt | Sumqayıt, Abşeron, Xızı, Siyəzən, Qubadlı |
| **Rövşən Rzayev**<br>**Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri** | 30 | Quba | Quba, Qusar, Xaçmaz, Şabran, Siyəzən |

**Qeyd:** Vətəndaşların qaldırdıqları məsələlər qəbulu keçirən mərkəzi icra hakimiyyəti orqanının səlahiyyətlərinə aid olmalıdır.

# Media vasitəsi adından istifadə edib cinayət əməli törədənlər cəzalandırılmalıdırlar

Reketliklə məşğul olan daha bir "jurnalist" Dövlət Təhlükəsizliyi Xidmətinin əməkdaşları tərəfindən saxlanıldı. Dövlət Təhlükəsizliyi Xidmətinin ictimai əlaqələr şöbəsindən verilən məlumatda bildirilir: "Rəhimov İkram Rafiq oğlu tabeçiliyindəki şəxslərlə birlikdə realliq.info və digər "reket" informasiya saytları yaradıb, həmin internet qəzetlərin jurnalistləri adı altında ayrı-ayrı vətəndaşların barəsində rüsvayedici və böhtan xarakterli məlumatların mətbu orqanlarında müntəzəm yayıb dayandırılması müqabilində pul tələb etməsi və alması, bu üsulla müxtəlif idarə və təşkilatlarda çalışan şəxslərdən, sahibkarlardan dövri haqq toplaması barədə daxil olmuş çoxsaylı şikayətlər Dövlət Təhlükəsizliyi Xidmətində araşdırılıb. Məhkəmə qərarı əsasında aparılan əməliyyat tədbirləri ilə İkram Rəhimovun əlaqəsində olan şəxslərlə birgə göstərilən silsilə cinayət əməlləri müfəssəl qeydə alınıb. İkram Rəhimov oktyabrın 26-da Cinayət Məcəlləsinin 182.2.1 və 182.2.2-ci maddələri üzrə (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən təkrarən hədə-qorxu ilə tələb etmə) cinayət əməllərində şübhəli şəxs kimi saxlanılaraq, cinayət məsuliyyətinə cəlb edilib".

Bu hadisə "reket jurnalistika"ya qarşı mübarizə mövzusunu bir daha aktuallaşdırdı. Mətbuat Şurasının yaydığı bəyanatda qeyd olundu ki, il ərzində belə "reket jurnalistlər"ə xəbərdarlıqlar edilib. Bəlli oldu ki, adını "jurnalist" qoyub, əslində, "reket"liklə məşğul olanlar xəbərdarlıqlara məhəl qoymurlar. Belələri sonunda cəzalarını alırlar. Mətbuat Şurasının bəyanatında bildirildi: "Nə özlərinin media ilə bağlı yarımçıq təsəvvürlərini həqiqət hesab edib cəbhə açanlar, nə də kimlərəsə sığınıb guya komanda oyunu oynadıqlarını düşünənlər uğur qazanıblar. Ölkə ictimaiyyəti onların düşdükləri durumun acınacaqlı sonluğunu görüb. Bu aqibət söz və ifadə azadlığının ruhuna, mahiyyətinə xəyanətin məntiqi nəticəsidir. Təəssüf ki, media orqanı adı ilə fəaliyyət göstərərək ölkəmizdə yaradılmış söz azadlığına, plüralizmə zor tətbiqi yolundan dönməyənlər qalmaqdadırlar. Onlar jurnalistika ilə bəsit təsəvvürləri dəyər kimi ictimailəşdirməyə cəhd göstərirlər. Mətbuat Şurasının istədiyi "Realliq.info" və digər saytların rəhbəri olan İkram Rafiqoğlu kimilərinin jurnalist adı ilə ayrı-ayrı vətəndaşlara, idarə, müəssisə və təşkilatlara yanaşmasındakı "Damokl qılıncı" obrazını heçə endirmək, bu üsul və vasitələrin əsl jurnalistika prinsipləri baxımından yolverilməzliyini, demokratik cəmiyyət quruculuğuna zidd təmayüllərini isbatlamaqdır".

Həbs olunan "reket jurnalist"lə bağlı müxtəlif iddialar, fərqli bölgələrdən şikayətlər Mətbuat Şurasına da gəlib. Bu barədə Mətbuat Şurası İdarə Heyətinin sədr müavini Müşfiq Ələsgərli ətraflı məlumat verib. O, diqqətə çatdırıb ki, Mətbuat Şurasının vəzifəsi məhkəməyə qədər funksiyanı yerinə yetirmək, məsələni sülh yolu ilə həll etməkdir. Sözügedən sayt redaktorunun qanunsuz əməlləri barədə M.Ələsgərli deyib: "Onun təxəyyülündəki jurnalistika fərqlidir, nə qanunlara, nə də peşə kodeksinə aidiyyəti yoxdur. Hədəf seçdiyi obyektlərə də oz prinsiplə ri ilə yanaşır". M.Ələsgərli Mətbuat Şurası zamanında İ.Rəhimovla bağlı üzərinə düşən işi gördüyünü, onun rəhbərlik etdiyi saytın 2017-ci ildən Mətbuat Şurasının "qara siyahı"sına düşdüyünü, lakin xəbərdarlıqlardan nəticə çıxarmadığını, tövsiyələri dinləmədiyini açıqladı: "Rəhbərlik etdiyi saytların fəaliyyəti qanunlara sığmadığı üçün dəfələrlə bloklandı, nəticə çıxarmadı. Realliq.info bloklandı, əvəzində realliqinfo.az saytını açdı, o da bloklandı, əvəzində realliq.org açdı... Bu minvalla rəhbərlik etdiyi saytlar barədə 6 dəfə inzibati ölçü götürüldü, nəticə çıxarmadı".

İkram Rəhimov və onun saytı barəsində məsələyə Mətbuat Şurası 2017-ci ildə baxıb. Həmin ilin avqustunda quruma onun barəsində şikayətlər daxil olmuşdu. Sentyabr ayında o, Mətbuat Şurasının iclasına dəvət edilib, yol verdiyi xətaları diqqətinə çatdırılıb. İ.Rəhimov bunlardan nəticə çıxarmaq yerinə, fəaliyyətini daha da intensivləşdirib. Haqqında daha ciddi şikayətlər gəldiyi üçün 2017-ci ilin dekabrında növbəti dəfə Mətbuat Şurasına dəvət edilib. M.Ələsgərli açıqladı ki, İ.Rəhimovun həbsdə olan adamlara siyasi sığınacaq alması, jurnalist vəsiqəsi paylaması, eləcə də digər məsələlərlə bağlı faktlar və şikayətlər daxil olmuşdu: "Ona görə də növbəti dəfə çağırıb, bu halları nəzərinə çatdırdıq. Lakin təəssüf ki, yenə nəticə olmadı. Əlkədə prosedur belədir ki, məsələlər özünütənzimləmə qurumları səviyyəsində həllini tapmırsa, o zaman şikayətçilər məcbur olub növbəti mərhələdə məhkəmələrə üz tuturlar. Təəssüf ki, məhkəmələrin çıxardığı qərarlar da bu adamlara təsir etmədi. Məhkəmələrin qərarı ilə Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi onun saytını bloklamışdı. Məsələ burasındadır ki, İkram Rəhimov bundan da nəticə çıxarmayıb, materialları başqa "domain" üzərinə köçürdü. Həmin sayt da bloklandıqda, o, üçüncü bir saytı açdı. Nəticədə şikayətçilərin sayı durmadan artdı və Dövlət Təhlükəsizlik Xidməti onunla bağlı əməliyyat keçirdi".

Əlbəttə, "reket jurnalistika"sı ilə məşğul olanlara qarşı mübarizə aparılmalıdır. Əslində, beləleri jurnalistikaya bir ləkədir və onlar cəzalandırılmalıdırlar.

Qürurverici tarixi olan Azərbaycan mətbuatının üzərinə bu gün də çox böyük vəzifələr düşür. Müstəqil ölkəmizin tərəqqisi və onun azad vətəndaşlarının mənafeyi yolunda çalışmaq Azərbaycan jurnalistlərinin ən müqəddəs vəzifəsidir.

Dövlətimiz söz və mətbuat azadlığına təminat verir. Hər bir jurnalist materialları toplamalı, onun əsasında təhlil, tənqid etməlidir. Əgər jurnalistlər doğruları yazırlarsa, tənqidi faktlara əsaslana bilərsə, cəmiyyət üçün təhlükəli, yaxud onun inkişafına maneələr törədən məsələləri araşdırırlarsa, bununla öz vəzifələrini yerinə yetirirlər. yox əgər kimsə jurnalist adından istifadə edib raketçilik edirsə, qrup yaradıb insanlara, nüfuzlu şəxslərə hədə-qorxu gəlirsə bu heç bir normaya sığmır və təbii ki, qanun qarşısında cavab verməlidir.

Mətbuatın adından istifadə edib, adamları hədələyən, təhdid edən, şantaj yolu ilə onlardan pul qoparmağa çalışanlar heç zaman unutmamalıdırlar ki, cinayət əməli törədirlər və sonunda buna görə cəzalarını alacaqlar.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

# DTX "saxta təhlükəsizlik orqanı rəsmisi"ni saxlayıb

Dövlət Təhlükəsizliyi Xidməti (DTX) tərəfindən aparılan araşdırmalarla Azərbaycan Respublikasının vətəndaşı Həşimov Rzamin Rza oğlunun özünü dövlət təhlükəsizliyi orqanlarının vəzifəli şəxsi kimi təqdim edərək əlaqəsində olan şəxslərlə birlikdə Fətəliyev Hacı Fətəli oğlu, Əmənov Faiq Mətləb oğlu və digər vətəndaşların maddi vəsaitlərinin ələ keçirilməsi istiqamətində cinayət əməlləri törətməsi müəyyən edilib. Həyata keçirilmiş əməliyyat tədbirləri ilə Rzamin Həşimovun qeyd olunan əməlləri müfəssəl qeydə alınıb.

DTX-nin ictimai əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, Rzamin Həşimov həmin cinayət əməllərində şübhəli şəxs kimi saxlanılaraq cinayət məsuliyyətinə cəlb edilib. O, saxlanılarkən təxəyyülündəki xüsusi vasitə olan əl qandalı daşıdığı müəyyən edilib.

Məlum olub ki, Rzamin Həşimov əvvəllər də özünü vəzifəli şəxs kimi təqdim edərək törətdiyi cinayət əməllərinə görə 2008-ci il 29 yanvar və 2013-cü il 13 fevral tarixli məhkəmə hökmləri ilə azadlıqdan məhrumetmə cəzalarına məhkum olunub.

Faktla bağlı aparılan cinayət işi üzrə məhkəmənin 2018-ci il 29 oktyabr tarixli qərarı ilə Rzamin Həşimovun barəsində həbs qətimkan tədbiri seçilib.

Hazırda istintaq araşdırmaları davam edir.

Təbii sərvətlərimiz

# Dünyanın ən böyük çinar meşəsi

Müxtəlif arxiv materiallarını, ayrı-ayrı alimlərin mənbələrdə çap olunmuş məqalələrini, fikirlərini təhlil edərək sübut olunub ki, Azərbaycan Respublikasının Zəngilan rayonunda, Bəsitçay hövzəsində yerləşən təbii çinar meşəsi sahəsinə, ağacların fiziki vəziyyətinə görə dünyada ən böyük çinar meşəsidir.



Çinar (Platanus) - çinar fəsiləsinin bitki cinsindən olmaqla tarixi çox qədim olan Kaynazoy erasının üçüncü dövr relikt florasının yadigarı sayılır. Mezozoyun tabaşir dövrünün süxurlarında bu ağacların qalıqları tapılmışdır.

Çinar çiçəkli bitkilərin ən qədim növlərindən biridir. Gözəlliyinə, görkəminə və nadir bioekoloji əlamətlərinə görə onu Şərqin ağac florasının mirvarisi, möhtəşəm gövdəsi, əzəmətli, yaraşıqlı çətirinə görə isə Cənubun nəhəng ağacı adlandırırlar.

Geniş və sıx çətirli olmaqla qışda yarpaqlarını tökür. Gövdəsi çox möhkəmdir (boyu 40-50 metrə qədər, gövdəsinin çevrəsi 18 metrə çatır). Yarpaqları növbəli düzülüşlü, barmaqvari dilimlidir, uzun saplaqlıdır. Xırda çiçəkləri bircinslidir. Erkəkcik çiçəkləri sarımtıl rəngdə olub qoltuq çiçək qrupunda yerləşir. Dişicik çiçəkləri isə nisbətən iri, al-qırmızı şarabənzər başlıqda toplaşır. Onlar bəzən 2-7 ədəddən ibarət uzun çiçək saplağında sallaq şəkildə olurlar. Hər iki çiçək bir ağacda olduğundan birevli müxtəlif cinsli bitkidir.

Çinarın meyvəsi çoxlu fındıqçalardan ibarət olub bütün qışı ağacdan asılı vəziyyətdə qalaraq ağaca xüsusi cazibədarlıq verir. Yarpaqlarını qışda tökür, aprel-may aylarında çiçəkləyir. Meyvəsi (toxumu) sentyabr-oktyabrda yetişir. Növbəti ilin yazında şarabənzər meyvələr parçalanır və fındıqçalar yerə tökülür, külək vasitəsilə uzaqlara sovrulur. Yaşlı ağacların gövdəsinin qabığı yaşılımtıl pulcuqvari olub qopduğundan ağacın gövdəsi ala-bəzək görkəm alır. Çinar tez böyüyən və uzun ömürlü ağaclardandır. Ağacların 80 faizi kök pöhrələrdən cücərir. Çinar 10-15 yaşından meyvə verməyə başlayır, ən məhsuldar dövrü 150-200 yaşındadır. Çinarlar 2000-2300 ilə qədər yaşaya bilir. Yüngül, möhkəm cizgili oduncağından faner, parket, mebel istehsalında, gəmiqayırmada və eləcə də dekorativ ağac kimi yaşıllaşdırmada istifadə edilir.

Görkəmli rus alimi İ.V.Palibin "Florı SSSR" kitabında Qafqazın cənubunda çinar ağaclarının sistematik təsnifatını vermiş və göstərmişdir ki, bu çinar meşələri yabanı halda şərqi və cənubi Zaqafqaziyada yayılmışdır.

M.Kirpiçnikov və Q.Axundovun məqaləsində verilir ki, akademik A.A.Qrossheymin başçılıq etdiyi cənubi Qarabağın bitki aləmini öyrənən ekspedisiya A.V.Şelkovnikov tərəfindən məlumatlandırılmış və onlar 1948-ci ilin yayında təbii çinar meşəsinin yayıldığı əraziyə gəlmişlər (yəni Zəngilan rayonu ərazisindəki Rəzdərə yabanı çinar meşəsinə - O.Ə). Ekspedisiya nümayəndələri göstərir ki, burada çinarlar 25-30 m hündürlükdədir və diametri 2,5 m -ə qədərdir. Ağaclar yaxşı vəziyyətdədir. Təqribən eyni yaşlıdırlar (150-200 il). Çinarların üstü çətirlərlə örtülməsinə baxmayaraq, onların alt hissəsi işıqlıdır. İkinci mərtəbə, demək olar ki, bilinmir. Burada meşəaltı yoxdur. Çinarlar çaybasarda sıxlaşır. Çaybasarın kənarlarına doğru getdikcə onlar qoz ağacları ilə əvəz olunur. Çayın sahilləri boyunca söyüd ağacları da geniş yayılmışdır. Ekspedisiya üzvləri çinarların çay vadisi boyunca yayıldığını göstərsələr də, bu çayın Bəsitçay olduğunu yazmamışlar.

Tanınmış təbiətşünas alim İ.S.Səfərovun "Azərbaycanda təbii çinar ağacları" məqaləsindən məlum olur ki, Azərbaycan SSR-də endemik çinar ağaclarının mövcud olması barədə meşələrin yayılması ilə bağlı keçmiş mənbələrdə heç bir məlumata rast gəlinmir. Son vaxtlara qədər müxtəlif mənbələrdə çinar ağaclarının, ancaq Kiçik Asiya və Himalayda təbii yolla cücərib artdığı, Yer kürəsinin başqa yerlərində isə bu qiymətli çinar ağaclarının ancaq insanlar tərəfindən əkilib becərilməklə yetişdirildiyi güman edilirdi.

Buna görə də Kiçik Qafqaz dağlarının cənub-şərq yamaclarında, Azərbaycan SSR ərazisində çinar ağaclarının təbii (yabanı) yolla cücərib artması həm meşəçilik elmi, həm də nəbatat elmləri üçün böyük əhəmiyyətə malikdir.

Zəngilan rayonunda Zəngəzur silsiləsinin şərq yamaclarından başlayıb axan Bəsitçay boyunca 12-15 km məsafədə təbii (yabanı) çinar ağacları bitmişdir. Şimal tərəfdən bu çinar ağaclarına püstə, əzgil, dağdağan, palas murdarçası, qara murdarça, qaratikan, yemişan, alça və sairədən ibarət olan kserofit xarakterli meşə massivləri, cənubdan isə palıd, vələs, vən və digər ağaclardan ibarət meşəliklər qovuşur.

Çinar ağaclarının yaşı orta hesabla 250-300 ilə yaxındır. Hündürlükləri 40-50 m olub, diametrləri 3-5 m-dir. Onlar yaşıllıq işlərində əvəzedilməz ağac növlərindən biridir. Cəbrayıl, Ağdaş, Göyçay, Zaqatala, Gəncə, Şəmkir və bir sıra başqa rayonlarda bitən nəhəng çinar ağacları bu yerləri xeyli gözəlləşdirir.

Çinar tez böyüyən ağacdır. Qələm vasitəsilə çoxaldılır. Kök salmış qələmləri çıxarıb əkmək daha məsləhətdir. Belə qələmləri isə xüsusi şitilliklərdə hazırlamaq lazımdır.

İ.S.Səfərov və K.S.Əsədov "Azərbaycan meşələrinin nadir ağacları və kolları" kitabında çinar haqqında xeyli məlumatlar vermişlər: "Şərq çinarı Tabaşir dövrünün qədim florasının nümayəndəsi olmaqla Azərbaycan SSR-də Kiçik Qafqazın cənub-şərqindəki Bəsitçay vadisində qalmışdır. Burada Azərbaycan SSR ərazisində çinar meşəliyinin uzunluğu 12 km, eni 60-200 m olan 120 hektara yaxın sahədə yayılmışdır. Çinarlıq çayın mənbəyinə tərəf uzanaraq 7-8 km indiki Ermənistan sərhədinə keçir. Beləliklə, Bəsitçay vadisində çinar meşəliyi 20 km uzanır. Azərbaycan ərazisindəki Bəsitçay və onun yuxarı qolları Xaçınçay, Şixavuzçay (Şikaxoxçay) (Bu qollar indiki Ermənistan ərazisindədir) vadisində çox yaşlı və iriölçülü ağacların sayı 1200-ə çatır və çoxlu pöhrəliklər də yayılmışdır. Çinarlar ömrü boyu pöhrə verir. İrigövdəli ağacların hamısının kötük hissəsindən çoxlu (40-100 ədəd və daha çox) pöhrələr qalxır. Ağaclar qocalaraq yıxıldıqda bu pöhrələr böyüyərək ana ağacı əvəz edir".

Q.Ş.Məmmədov, M.Y.Xəlilovun "Azərbaycanın meşələri" kitabında göstərilir ki, "Dünyada yayılmış çinarın 8 növündən Qafqazda yabanı və ya yabanılaşmış halda bir növü - Şərq çinarı bitir. Şərq çinarı boyu 30 (45), diametri isə 1,5-3 (5) m-ə çatan geniş dəyirmi çətirli ağacdır".

Çinar ağacının Azərbaycanda mədəni mənşəli,yabanılaşmış, təbii halda bitdiyi barədə müxtəlif fikirlər vardır. Lakin əksər dəlillər onun yabanı (təbii) olmasını təsdiq edir.

B.H.Təhməzov, E.F.Yusifov, K.S.Əsədov göstərir ki, "Azərbaycanda çinarların ən qədim və geniş təbii meşəsi Zəngilan rayonu ərazisində qalmışdır. Ermənistan tərəfindən Azərbaycan torpaqlarının işğalına qədər Bəsitçay vadisində müxtəlif yaşlı ağacların sayı 4500-5000 ədədə yaxın, indiki Ermənistan ərazisindəki çinar ağacları da nəzərə alınmaqla, onların ümumi sayı 7000 ədədə qədər idi".

Respublikamızda yayılan çinar növü Şərq çinarı və ya barmaqyarpaqlı çinar adlanır. Şərq çinarı Yunanıstanda dağ ətəklərində, Aralıq və Egey dənizləri sahillərində, Kipr, Krit və Rodos adalarında, Kiçik və Orta Asiyada, Cənubi Qafqazda geniş yayılmışdır.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə (1918-1920-ci illər) sahəsi 120 hektara yaxın olan Zəngilandakı çinar meşəsi tamamilə Azərbaycana məxsus idi. 1920-ci ildə Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra Azərbaycanın Zəngəzur torpaqlarının bir hissəsi indiki Ermənistana verilmişdir. Bunun nəticəsində Bəsitçay vadisindəki çinar meşəsinin müəyyən hissəsi Bəsitçayın qolları olan Xaçınçay və Şixavuzçay vadiləri boyunca yayılan çinar ağacları seyrək şəkildə indiki Ermənistanın Qafan rayonunun Nerkin-Hand, Sav və Şixavuz (Şikaxox) kəndləri ərazisində qalmışdır. Şixavuz kəndindən bir qədər yuxarı "Almalıq bağı" və ona yaxın olan ərazilər Boğazyurd (bəzən Pirçivanyurd) adlanırdı. Zəngilanlılar son dövrlərə qədər bura yaylağa istirahətə gəlirdilər.

Qalereya şəkilli koridorvari uzanan çinar meşəliyində qoz, dağdağan, araz palıdı, əncir, nar, saqqız, iydə, əzgil, alma, armud, alça ağacları ilə yanaşı, böyürtkən, yemişan, itburnu və s. kolları da yayılmışdır.

Tanınmış təbiətşünas alim, akademik Həsən Əliyevin təşəbbüsü ilə nadir təbiət abidəsi olan çinar meşəsini qorumaq məqsədilə Azərbaycan SSR Nazirlər Sovetinin 4 iyul 1974-cü il tarixli qərarı ilə Zəngilan rayonu ərazisində 117 hektar sahəni əhatə edən Bəsitçay Dövlət qoruğu yaradılmışdır. 1980-ci ilin oktyabrında qoruğun sahəsi 10 hektar azalaraq 107 hektar təşkil edir, bunun 100 hektarını meşə, qalan 7 hektarını Bəsitçay vadisinin daşlı və qumlu sahələri tutur. Azərbaycan ərazisində uzunluğu 12 km, eni 60-200 m olan çinar meşəsinin ümumi sahəsi 120 hektara yaxındır. Çinar ağacları çayın mənbəyinə tərəf uzanaraq seyrəkləşir, 7-8 km məsafədə indiki Ermənistan ərazisinə keçir. Bu çinar meşəsi Zəngilan rayonunun Baharlı kəndi yaxınlığında Bəsitçayın Araz çayına qovuşduğu yerdən 200-300 m məsafədə seyrəlib qurtarır.

Bəzi mənbələrdə Bəsitçay vadisindəki çinar meşəsinin Avropada birinci, dünyada ikinci olduğu göstərilir və dünyada ən böyük çinar meşəsinin Şimali Amerikada-Kanada ərazisində olduğu söylənir. Lakin bu fikir heç bir elmi mənbəyə əsaslanmır.

"SSRİ-nin qoruqları, Qafqazın qoruqları" kitabında biologiya elmləri namizədi E.V.Roqaçevanın məqaləsində göstərilir ki, "Kiçik Qafqazın cənub-şərq hissəsində yerləşən Bəsitçay vadisindəki qoruq uzunluğu təqribən 15 km və eni 150-200 m olmaqla çay vadisi boyunca yayılmışdır. Çayın mənbəyinə doğru davamı Qərbdə indiki Ermənistan ərazisindəki meşələrə keçir. Qoruq dəniz səviyyəsindən 600-800 m hündürlükdə yerləşir. Azərbaycanda çinar meşələri Bəsitçay vadisində qoruğun sahəsinin 93,5 faizini tutur. Burada çinarlar 900 m-ə qədər yüksəklikdə, əkilmiş halda 1200 m yüksəkliyə qədər bitə bilir. Qoruqdakı çinar ağaclarının orta yaşı 170-dir. İndiki dövrdə burada nəhəng çinarların yaşı 1200-1500 il olmaqla, hündürlüyü 50 m, diametri 4 m-dir. Azərbaycanın hər yerində təbiət abidəsi olaraq çinarlar qorunur. Relikt bitki olan Şərq çinarı keçmiş SSRİ-nin "Qırmızı kitab"ına daxil edilmişdir. Azərbaycan ərazisində geniş yayılmış yabanı (təbii) Şərq çinarı (Platanus orientalis L.) meşəsi dünyanın ən böyük meşə massividir.

Araşdırmalar apararaq belə nəticəyə gəlirik ki, Azərbaycan Respublikası Zəngilan rayonu ərazisindəki Şərq çinarı (Platanus orientalis L.) yabanı meşəsi Yer kürəsinin ən böyük çinar meşəsidir. Bu meşə massivi sahəsinin böyüklüyünə görə dünyada birincidir.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycanın əzəli oğuz-türk torpaqları olan Dağlıq Qarabağ və onun ətrafında olan 7 rayon (Laçın, Kəlbəcər, Ağdam, Cəbrayıl, Füzuli, Qubadlı, Zəngilan) erməni hərbi birləşmələri tərəfindən işğal edilmişdir və hazırda həmin ərazilər Ermənistanın nəzarəti altındadır. Bunun nəticəsində digər tarixi və mədəni abidələr kimi Zəngilan ərazisindəki dünyanın nadir təbiət incilərindən olan çinar meşəsi müxtəlif mənbələrdən verilən məlumatlara görə ermənilər tərəfindən vəhşicəsinə qırılır, talan edilir, kəsilib satılır. Tarixi abidələr dağıdılır.

Planetin mədəniyyət və təbiət abidələrinin mühafizəsi və qorunması məsələləri ilə bilavasitə UNESCO təşkilatı məşğul olur. Bu vəzifə 1972-ci ildə 164 ölkənin imza atdığı "Bəşəri əhəmiyyətli mədəni və təbii xarakterli irsi abidələrin mühafizəsi üzrə" Paris konvensiyası əsasında həyata keçirilir. Azərbaycan Respublikasının Milli Məclisi bu konvensiyanı 1993-cü ildən ratifikasiya etmişdir. Bəşəri əhəmiyyətli təbiət abidələri yerləşdiyi ərazidən asılı olmayaraq planetin bütün insanlarına məxsusdur. Bəşəri əhəmiyyətli mədəni və təbii xarakterli irsi abidələrin mühafizəsi komitəsi və digər beynəlxalq təşkilatlar dünyanın nadir təbiət abidələrindən biri olan Bəsitçay Dövlət Qoruğunun ermənilər tərəfindən vəhşicəsinə qırılmasına və terrora məruz qalmasına etiraz səslərini ucaltmalı və bu vəhşiliyin qarşısı alınmalıdır.

**Oqtay ƏLƏKBƏROV,**
***coğrafiyaşünas, tədqiqatçı***

# Ömür pillələri

Onu məktəb illərindən tanıyıram. Bəstəboy, sağlam bədənli bu yeniyetmə çalışqanlığı, əməksevərliyi, bir də idmana olan həvəsiylə başqalarından seçilirdi. Məktəblər arasında keçirilən idman yarışlarında həmişə qalib olardı. Məktəbimizin üzünü, necə deyərlər, ağardardı. Ona görə də müəllimlər onun xətrini çox istəyirdilər. Bir də təmkinli olmasına baxmayaraq, sözündən dönməzdi.



Orta məktəbi bitirəndə Əlibala Səlimov artıq öz peşə yolunu seçmiş və qəti qərar qəbul etmişdi - yüksəkixtisaslı kənd təsərrüfatı mütəxəssisi, ali təhsilli aqronom olmaq. O, bu yolla da getdi. Əmək fəaliyyətinə adi entemoloq kimi öz el-obasında - Neftçalanın Xolqarabucaq sovetliyinin ərazisindəki təsərrüfatda başladı. İşə tez alışdı. Zəhmətsevərliyi, bacarığı sayəsində az müddətdən sonra aqronom vəzifəsinə irəli çəkildi.

* * *

Ötən əsrin 70-80-ci illəri Azərbaycanda ən uğurlu, məhsuldar dövr kimi yadda qalıb. Həmin illər hökumət "Kadrların seçilib, yerləşdirilməsi və onların tərbiyə edilməsi haqqında" qərar qəbul etmişdi. Respublikamıza rəhbərlik edən ulu öndər Heydər Əliyev həmin qərarı xüsusi olaraq öz diqqət və nəzarətində saxlamış, bu aktual məsələnin icrasını rayon rəhbərləri qarşısında qəti tələb kimi qoymuşdu. Ona görə də bacarıqlı, savadlı mütəxəssislər, xüsusən də gənclər irəli çəkilir, onlara qayğı göstərilir, işləmək üçün şərait yaradılırdı.

Belə münbit şəraitdə Ə.Səlimovun digər qabiliyyətləri də üzə çıxdı. İşgüzarlığı ilə bərabər o, təşəbbüskarlığı, tələbkarlığı və intizamı ilə də fərqləndi. Çox çəkmədi əmək fəaliyyətinə başladığı böyük təsərrüfata - Yusif Qasımov adına kolxoza sədr seçildi. Qısa müddətdə gördüyü tədbirlər nəticəsində təsərrüfatda məhsuldarlıq artdı, kolxozçuların əmək gününün dəyəri, ilin yekununda natura şəklində verilən taxıl məhsullarının həcmi çoxaldı, kənddə güzəran yaxşılaşdı. Kənddə kolxoz hesabına poçt, tibb məntəqəsi, məktəb, mədəniyyət evi tikildi. Kəndin mərkəzi hissəsində böyük bir xiyaban, seyrəngah yaradılaraq asudə vaxt mərkəzi kimi kolxozçuların ixtiyarına verildi. Bütün bunlar Əlibalanın hörmətini artırır, onu insanların gözündə ucaldırdı. Ətraf yerlərdən, eləcə də respublikanın ən ucqar yerlərindən təsərrüfat rəhbərləri bura gəlir, Ə.Səlimovun təsərrüfatındakı uğurları ilə maraqlanır, onun təcrübəsindən faydalanmağa çalışırdı. Bəzən tanınmış adlı-sanlı təsərrüfat rəhbərləri də Əlibalanın bacarığına, yaxşı mənada, qibtə edirdilər. Sonralar rəhbərlik etdiyi N.Nərimanov, E.Əskərov adına kolxozlarda da bu ənənə davam etdirildi.

* * *

Azərbaycan kolxozçularının IV qurultayı ərəfəsi idi. Hər yerdə qızğın söhbətlər, müzakirələr gedirdi. Respublika Kolxozlar Şurasının sədri kim olacaq sualına cavab axtarılırdı. O vaxtlar Azərbaycanda 1000-ə yaxın kolxoz, 10 mindən çox ali təhsilli kənd təsərrüfatı mütəxəssisi, onlarla adlı-sanlı əmək adamı vardı. Onların arasında özünü bu vəzifədə görənlər də az deyildi. Amma bu ictimai vəzifənin sahibi rəhbərlik təcrübəsinə, xüsusi keyfiyyətlərə malik, təşkilatçı, sanballı və enerjili gənc kadr olmalı idi. Belə bir gənc təsərrüfatın bütün pillələrində çalışmış, zəhməti ilə uğur qazanmış, respublikanın hər yerində tanınan, Heydər Əliyev məktəbinin yetirməsi 32 yaşlı Əlibala Səlimov idi. Seçim doğru idi. Bunu bir il sonra Ə.Səlimovun SSRİ Ali Sovetinin deputatı seçilməsi də sübut etdi.

Ə.Səlimov el-obasına bağlı adamdır. Hələ kolxoz sədri olduğu illərdə rayon partiya komitəsinin büro iclaslarında, yığıncaqlarda Xol zonası kəndlərinin su, yol, işıq, qaz problemlərindən danışır, rəhbərlərin diqqətini bu məsələlərin həllinə yönəltməyə çalışırdı. Çox vaxt da həmin problemlərin həllinə nail olurdu.

Əlibala Səlimov SSRİ Ali Sovetinin deputatı olduğu müddətdə də rahat dayanmadı, doğulduğu, boya-başa çatdığı kəndi unutmadı. Xol zonasında iki orta məktəb, bir xəstəxana, bir uşaq bağçasının tikilməsinə nail oldu, Moskvadan böyük bir idman sağlamlıq kompleksinin Xol zonasında salınmasına razılıq aldı. Onun ardıcıl səyi nəticəsində ittifaq büdcəsindən vəsait ayrıldı və qısa müddətdə idman kompleksinin inşasına başlandı. Lakin həmin illər respublikada çox ağır bir dövr idi, o cümlədən başqa rayonlarda olduğu kimi, Neftçalada da vəziyyət mürəkkəb idi. M.Qorbaçovun "yenidənqurma" adlı xaos siyasəti öz işini görmüşdü.

O vaxt rayonumuzun rəhbəri Şamil Hüseynov idi. Şamil müəllim çox bacarıqlı, savadlı, mədəni və nəzakətli insan idi. Gənc olmasına baxmayaraq, təmkinli, həssas, uzaqgörən idi. Rayon fəallarının yığıncaqlarının birində sözü Ə.Səlimovun təşəbbüsü ilə Xolda tikilən idman kompleksinin üstünə gətirdi:

- Xol zonası rayon mərkəzindən uzaqda yerləşir, ərazi bir rayon böyüklüyündədir. O zonaya daha çox diqqət yetirilməlidir. Əlibala Səlimov ittifaq büdcəsindən vəsait alıb, tikinti işləri aparırsa, bu böyük fədakarlıqdır. Mən inşaatçıyam, tikintinin plana salınmasının, bunun üçün vəsait ayrılmasının nə qədər çətin olduğunu yaxşı bilirəm. Kaş hamı Əlibala Səlimov kimi işləyəydi.

* * *

Müstəqilliyimizin ilk illərində xalqın istəyi, təkidli tələbi ilə hakimiyyətə qayıdan Heydər Əliyevin rəhbərliyi altında bütün sahələrdə genişmiqyaslı islahatlar aparılmasına başlandı. Aqrar sahədə də böyük islahatlar aparılmalıydı. 1995-ci ildə dövlət başçısının fərmanı ilə Respublika Aqrar İslahat Komissiyası yaradıldı. Təcrübəsi, keyfiyyətləri nəzərə alınaraq Ə.Səlimov komissiyaya üzv seçildi.

Bacarıqlı, istedadlı adamlar istənilən şəraitdə fəaliyyət göstərib uğur qazanırlar. Yeni şəraitdə Ə.Səlimov özünün fermer-təsərrüfatını - "Muğan-2017 istehsal kooperativi"ni yaratdı. Bu gün də rayonda ən nümunəvi təsərrüfat kimi fəaliyyət göstərən "Muğan-2017 istehsalat kooperativi" taxıl toxumçuluğu üzrə ixtisaslaşıb.

Amma keçən il Ə.Səlimov yaranmış şəraitdən istifadə edib pambıq da əkdi. Çəkilən zəhmət hesabına bol məhsul yetişdirildi, yüksək göstəricilər əldə edildi. Pambıq əkilmiş 12 hektar sahədən 60 ton məhsul toplandı. Bu il isə fermer pambıq sahəsini iki dəfədən çox artırıb. 30 hektar sahəyə yüksək məhsuldarlı çiyid səpib. Nəticə gözləniləndən də yaxşıdır. Hələ yığım başa çatmayıb, lakin hər hektara düşən məhsuldarlığın real həcmi 58 sentnerə çatıb. Bu, Azərbaycanın pambıqçılıq tarixində ən yüksək göstəricilərdəndir.

* * *

O günü bütün efirlərdə, televiziya kanallarında reportajlar gedir, Ə.Səlimovun pambıq yığımında əldə etdiyi yüksək göstəricilərdən söhbət açılır, onun pambıqçılar arasında birinci olaraq raport verməsindən danışılırdı. Eyni zamanda, doğulduğum kəndin, doğma Neftçalanın adı səslənirdi. Təbrik edib, sevincimi bölüşmək üçün ona zəng etdim. Təşəkkürünü bildirdi: "Başım qarışıqdır, kəndə gələrsən, görüşərik".

Axşamüstü Bərə üstündə görüşdük. Birbaşa tarladan gəlirdi, paltarını da dəyişməmişdi.

- Axırıncı pambıq lafetini indi yola salmışıq, - dedi.

Rahat şəraitdə söhbətimizi davam etdirmək istəyirdik. Amma telefonu susmaq bilmirdi. Respublikanın hər yerindən onu təbrik edir, ünvanına xoş sözlər deyirdilər. Zənglərin çoxluğundan heyrətləndiyini görüb dedim:

- Bu gün qazandığın uğurlar çəkdiyin zəhmətin, əzmkarlığın nəticəsidir. İndi bəhrəsini görürsən.

Ciddi görkəm alıb özünəməxsus şəkildə cavab verdi:

- Zəhmət, əzmkarlıq, əlbəttə, şərtdir. Lakin əsas şərt dövlətin pambıqçılığa olan münasibəti və dəstəyidir. Bunun sayəsində insanlarda bu sahəyə inam, maraq artıb. Əsas səbəb budur. Prezidentin iştirakı ilə Saatlı rayonunda keçirilən müşavirədə necə təsirləndimsə, təşəbbüs göstərib tanınmış pambıqçı, Sosialist Əməyi Qəhrəmanı Fatma Hüseynovanı yoldaşlıq yarışına çağırdım. Bu bizim ilk təşəbbüsümüz idi. İndi bu təşəbbüsə qoşulan pambıqçı fermerlərin sayı 10-a çatıb. Pambıqçılıqla məşğul olan rayonların sayı isə 20-ni keçib. Növbəti illərdə bu qayğıdan bəhrələnmək istəyənlərin sayı daha da çoxalacaq. Azərbaycanda pambıqçılıq inkişaf edib potensial gücünü göstərəcək. Təcrübə, torpaqla davranmaq, torpağın dilini bilmək, torpağı sevmək, zəhmət çəkmək vacib şərtlərdir. Ancaq biz fermerlər üçün yaradılmış münbit şərait də az əhəmiyyətli deyil. Bu şəraitdən maksimum istifadə olunmalıdır. Mənim bugünkü qələbəm isə Azərbaycan pambıqçılarının potensial gücünün göstəricisidir, nümunəsidir. Yaxın gələcəkdə belə nümunələrin, qələbələrin, göstəricilərin daha çox olacağına əminəm.

- Əlibala müəllim, kənd təsərrüfatı naziri İnam Kərimov rayonumuzda olarkən sizin təsərrüfatınıza da baş çəkdi. Bildiyimə görə, nazir təsərrüfatınıza sizin dəvətinizlə gəlmişdi.

- Avqustun 15-də Salyan şəhərində nazirin iştirakı ilə pambıqçıların zona müşavirəsi keçirilirdi. Müşavirənin sonunda o, üzünü müşavirə iştirakçılarına tutub dedi ki, kimin nə sözü, nə təklifi, nə problemi varsa, buyurub desin. İcazə istəyib açıq mikrofona yaxınlaşdım. Fermer təsərrüfatım barədə qısa məlumat verdim, keçənilki nailiyyətlərdən danışdım. Bu il bol məhsul yetişdirdiyimizi, yüksək keyfiyyətli pambıq yığıb təhvil verəcəyimizi vəd etdim. Sözümü davam edib pambıqçılığın inkişafı, qarşıya qoyulan məqsədə nail olmaq üçün konkret təkliflər söylədim, mövcud problemlərin həlli yollarından danışdım. Nazir mənə bir neçə sual verdi. Həm keçənilki, həm də bu mövsümdə vəd verdiyim göstəricilərlə maraqlandı. Mənə elə gəldi ki, dediyim rəqəmlər tədbirdə iştirak edənlərə də, nazirin özünə də real görünmür. Ona görə də naziri fermer təsərrüfatımıza dəvət etdim. Əvvəla onu deyim ki, nazirin rayonumuzda olması, rayon rəhbərləri ilə birgə başçılıq etdiyim təsərrüfata gəlməsi təkcə mənim dəvətimlə bağlı deyil. Prezident İlham Əliyev bütün çıxışlarında məmur-vətəndaş münasibətlərinə toxunur, "vəzifəli şəxs xalqın arasında olmalıdır" mesajını verir. Bu baxımdan kənd təsərrüfatı nazirinin rayonumuza gəlib təsərrüfatları gəzməsini, eləcə də bizim təsərrüfatda işlərin gedişi ilə tanış olmasını dövlət başçısının tapşırığının icrası kimi başa düşmək lazımdır. İnanın, insanların belə görüşlərə ehtiyacı var.

**Cahangir ABDULLAYEV,**
*Neftçala*

# 200 min tona az qalıb

Dövlət Statistika Komitəsi ölkədə pambıq yığımının gedişi barədə növbəti hesabatını açıqlayıb. Cədvəldən də göründüyü kimi, builki pambıq tədarükü ötən ilin eyni dövründəki göstəriciləri üstələməkdə davam edir. Oktyabrın 30-na olan məlumata görə, ölkə üzrə 182,3 min tondan çox pambıq toplanıb ki, bu da keçən ilin müvafiq dövrünə nisbətən 22,8 faiz çoxdur.

Ayrı-ayrı bölgələrə gəldikdə, yenə də Ağsu, Biləsuvar və Ucardan savayı pambıq yetişdirən digər rayonların hamısı ötənilki yığım sürətindən irəlidədir. Onların arasında iri pambıqçılıq rayonlarının sayı da az deyil. Məsələn, belə bölgələrdən sayılan Saatlı indiyədək 24,3 min ton məhsul toplayaraq keçən ilin eyni dövründəki göstəricisini 15, Bərdə 19 min tonla - 33,4, Ağcabədi 18,9 min tonla - 37,1, Beyləqan 16,7 min tonla - 47,3, İmişli 13,9 min tonla - 44,2, Sabirabad 13,7 min tonla - 0,8 faiz üstələyirlər.

İndiyədək 10 min tondan az məhsul tədarük edən rayonlar sırasında keçən ilin müvafiq dövrünün göstəricilərini qabaqlayanların sayı da az deyil. Beləlləri sırasında daha çox fərqlənən Goranboy, Hacıqabul, Kürdəmir, Yevlax, Samur keçən ilin eyni dövründəkindən faizlə yox, hətta dəfələrlə artıq pambıq tədarük ediblər.

**30.10.2018-ci il tarixə pambıq tədarükünə dair operativ məlumat**

| Rayonlar | Əkin sahəsi, hektar | | | 30 oktyabr tarixə pambıq qəbulu məntəqələrinə təhvil verilmişdir, ton | | |
|---|---|---|---|---|---|---|
| | 2018-ci il | 2017-ci il | 2018-ci il 2017-ci ilə nisbətən | 2018-ci il | 2017-ci il | 2018-ci il 2017-ci ilə nisbətən |
| **Respublika üzrə cəmi** | **132512,0** | **136413,2** | **97,1%** | **181323,03** | **147683,42** | **122,8%** |
| Ağcabədi rayonu | 10000,0 | 9550,0 | 104,7% | 18973,54 | 13841,94 | 137,1% |
| Ağdam rayonu | 3100,0 | 3005,0 | 103,2% | 4511,78 | 4502,93 | 100,2% |
| Ağdaş rayonu | 3185,0 | 3000,0 | 106,2% | 3107,63 | 2565,00 | 121,2% |
| Ağsu rayonu | 2600,0 | 2500,8 | 104,0% | 1484,95 | 1821,60 | 81,5% |
| Beyləqan rayonu | 9560,0 | 8550,0 | 111,8% | 16735,75 | 11360,67 | 147,3% |
| Bərdə rayonu | 9630,0 | 8518,5 | 113,0% | 19052,22 | 14278,95 | 133,4% |
| Biləsuvar rayonu | 12000,0 | 11351,8 | 105,7% | 16867,82 | 18258,97 | 92,4% |
| Cəlilabad rayonu | 505,0 | 500,0 | 101,0% | 880,55 | 771,20 | 114,2% |
| Füzuli rayonu | 2100,0 | 2050,0 | 102,4% | 1676,96 | 1335,60 | 125,6% |
| Goranboy rayonu | 5000,0 | 5000,0 | 100,0% | 6456,03 | 4246,80 | 1,5 dəfə |
| Hacıqabul rayonu | 1300,0 | 1203,9 | 108,0% | 897,48 | 443,66 | 2 dəfə |
| İmişli rayonu | 13645,0 | 15641,5 | 87,2% | 13941,75 | 9665,09 | 144,2% |
| Kürdəmir rayonu | 5030,0 | 4027,0 | 124,9% | 5251,55 | 3400,10 | 1,5 dəfə |
| Neftçala rayonu | 7000,0 | 11111,0 | 63,0% | 8300,23 | 6971,16 | 119,1% |
| Saatlı rayonu | 15815,0 | 17220,0 | 91,8% | 24334,40 | 21160,30 | 115,0% |
| Sabirabad rayonu | 13055,0 | 15055,0 | 86,7% | 13710,42 | 13598,65 | 100,8% |
| Salyan rayonu | 7055,0 | 7052,4 | 100,0% | 8365,13 | 6555,40 | 127,6% |
| Samux rayonu | 400,0 | 53,0 | 7,5 dəfə | 847,76 | 24,65 | 34,4 dəfə |
| Tərtər rayonu | 3300,0 | 3123,0 | 105,7% | 6204,70 | 6144,74 | 101,0% |
| Ucar rayonu | 2500,0 | 2500,0 | 100,0% | 1284,38 | 1441,77 | 89,1% |
| Yevlax şəhəri | 2500,0 | 2168,0 | 115,3% | 4630,63 | 1995,94 | 2,3 dəfə |
| Zərdab rayonu | 3232,0 | 3232,3 | 100,0% | 3807,37 | 3298,30 | 115,4% |

**Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi**

# Miniatür Kitab Muzeyinin yeni nəşri

Son 15 ildə Azərbaycan dövlətinin keçdiyi inkişaf yolu xalqımızın sosial-mədəni həyatında da özünün geniş əksini tapmaqdadır. Artıq nəinki regionda, Avropa və dünyada söz sahibi olan Azərbaycanın bu yüksəlişi birbaşa dövlət başçısının daxili və xarici siyasətinin uğurlu nəticəsidir.

Cənab İlham Əliyevin növbəti dəfə dövlət başçısı seçilməsi xalqın öz iradəsinin ifadəsi kimi tarixin siyasi səhifələrinə zəngin faktlarla yazıldı. Cənab İlham Əliyev 18 aprel 2018-ci il tarixində Milli Məclisdə and içərkən keçilən yola nəzər salaraq demişdir: "...Hələ 2003-cü ildə prezident seçkiləri ərəfəsində xalqa müraciət edərək demişdim ki, əgər mənə xalq etimad göstərərsə, mən ulu öndər Heydər Əliyev siyasətinə sadiq qalacağam, bu siyasəti davam etdirəcəyəm. Mən fəxr edirəm ki, xalq mənə inandı, məni dəstəklədi və mən də öz növbəmdə sözlərimə əməl etdim"...




Bu sətirlər Miniatür Kitab Muzeyinin nəşr etdirdiyi "İlham Əliyevin andiçmə mərasimində nitqi"ndəndir. Dünyada analoqu olmayan Miniatür Kitab Muzeyi dövlət başçısının andiçmə mərasimində söylədiyi nitqini nəfis tərtibatda oxuculara təqdim edib.

Miniatür Kitab Muzeyinin Bakıda fəaliyyət göstərməsi də ulu öndər Heydər Əliyevin mədəniyyətə qayğısının nəticəsidir. Muzeyin ölkəmizə səfər edən əcnəbi qonaqlarının daim diqqətini özünə cəlb etməsi də təsadüfi deyil. Bu muzeydə dünyanın məşhurları haqqında söz açan və nadir hesab edilən incilər qorunub saxlanır. Fəaliyyət göstərdiyi illər ərzində Azərbaycan tarixi və mədəniyyətinin təbliğatçısına çevrilən muzeyin vaxtaşırı nəşr etdiyi miniatür kitablar beynəlxalq miqyasda tanınır və yüksək dəyərləndirilir.

Bu il də muzey ənənəsinə sadiq qalıb: Azərbaycan Prezidenti İlham Əliyevin 18 aprel 2018-ci il tarixində Milli Məclisdəki andiçmə mərasimindəki nitqi Azərbaycan, rus və ingilis dillərində, 38x53 mm ölçüdə, 384 səhifədən ibarət miniatür kitab şəklində işıq üzü görüb. Yeni nəşrdə 9 fotoşəkil yerləşdirilib.

Xüsusi tərtibatlı, zəngin məlumatlı, supercildli, "İndiqo" mətbəəsində 100 nüsxədən ibarət nəşr edilən "İlham Əliyevin andiçmə mərasimində nitqi" kitabının forzasında Azərbaycan xəritəsinin verilməsi diqqəti ilk andaca cəlb edir. Supercildin üz qabığında Prezident İlham Əliyevin 18 aprel 2018-ci il tarixində Milli Məclisdəki andiçmə mərasimindən şəkli verilib.

Xatırladaq ki, Miniatür Kitab Muzeyi kolleksiyası dünyada zənginliyi ilə seçilir və birinci yerdədir. Məhz ona görə "Ginnes Dünya Rekordları" kitabına daxil edilib. 30 ildən artıq müddətə formalaşan və 38 şüşə vitrində sərgilənən kolleksiyaya dünyanın 70-ə yaxın ölkəsində nəşr edilən 5700-dən çox miniatür kitab daxildir.

*Məhəmməd NƏRİMANOĞLU,*
*"Azərbaycan"*

## AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT TURİZM NAZİRLİYİ

*Bakı şəhərində iki turist informasiya məntəqəsinin yaradılması üzrə xidmətlərin satın alınması*

### B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Dövlət Turizm Agentliyi Bakı şəhərində iki turist informasiya məntəqəsinin yaradılması üzrə xidmətlərinin təkliflər sorğusu üsulu ilə satın almağı nəzərdə tutur. Maraqlanan təşkilatlar (050) 303-50-20 nömrəsi vasitəsilə əlaqə saxlaya bilərlər.

Satınalma müqaviləsi üzrə ödənişlər köçürmə yolu ilə aparılacaqdır. Malgöndərən (podratçı) tərəfindən təklif olunan mallar və işlərin qiymət dəyərindən başqa, nəqliyyat, sığorta, vergi, gömrük rüsumları və digər xərcləri nəzərə alınmaqla göstərilməlidir. Təqdim ediləcək mal, yerinə yetiriləcək iş və xidmətlər əsas şərtlər toplusundakı bütün tələblərə cavab verməlidir. Təkliflər qapalı zərfdə, imzalanıb möhürlənərək 09 noyabr 2018-ci il tarixdə saat 12:00-a qədər Dövlət Turizm Agentliyi, Landmark I, 3-cü mərtəbə Nizami küç., 96 E ünvanına təqdim olunmalıdır.

***Tender komissiyası***

### B İ L D İ R İ Ş

26.09.2018-ci il tarixdə "Elektrik mallarının və müxtəlif yağ tipli yük altında avtomatik tənzimlənən transformatorların satın alınması" məqsədilə elan edilmiş açıq tenderin LOT-2 (Müxtəlif yağ tipli yük altında avtomatik tənzimlənən transformatorların satın alınması) üzrə təklif verən iddiaçıların sayı üçdən az olduğu üçün Tender komissiyasının qərarı ilə tenderin davamından imtina olunur.

***Tender komissiyası***

## Atəşkəs rejimi 25 dəfə pozulub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 25 dəfə pozub.

Azərbaycanın Müdafiə Nazirliyindən AZƏRTAC-a bildirilib ki, Ermənistan Respublikası İcevan rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Bala Cəfərli kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Ağdam rayonunun Baş Qərvənd, Kəngərli, Yusifcanlı, Mərzili, Füzuli rayonunun Qobu Dilağarda, Qərvənd, Kürdlər kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam, Xocavənd və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

## Hərbi birlikdə döyüş atışlı təlim keçirilib

Azərbaycan Respublikası müdafiə nazirinin təsdiq etdiyi 2018-ci il üçün döyüş hazırlığı planına əsasən, ümumqoşun poliqonunda hərbi birliyin döyüş atışlı təlimi keçirilib.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, ssenariyə uyğun olaraq təlimlərə cəlb olunan motoatıcı, artilleriya, zirehli tank və mühəndis-istehkam bölmələri döyüş atışları icra edib.

## Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində növbəti monitorinq keçiriləcək

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, oktyabrın 31-də Ağdam rayonu istiqamətində Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində növbəti monitorinqin keçirilməsi planlaşdırılır.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, monitorinqi Azərbaycan tərəfindən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Mixail Olaru və Saymon Tiller keçirəcəklər.

Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş və nəzarət olunan Azərbaycan ərazisində monitorinqi ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anji Kaspşik, onun səhra köməkçisi Gennadi Petrika, ATƏT-in Minsk qrupunun həmsədrləri İqor Popov, Stefan Viskonti və onun şəxsi köməkçisi Küanti de Rankur, eləcə də Endryu Şofer və onun şəxsi köməkçisi Devid Börnşteyn aparacaqlar.

## Sinoptiklərdən xəbərdarlıq: Havanın temperaturu enəcək, qar yağacaq

Sinoptiklər ölkə ərazisində hava şəraitinin dəyişəcəyi ilə bağlı xəbərdarlıq ediblər.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən AZƏRTAC-a bildiriblər ki, oktyabrın 31-i gündüz şimal-qərb küləyinin əsəcəyi, arabir güclənəcəyi gözlənilir.

Azərbaycanın şimal rayonlarından başlayaraq oktyabrın 31-i gündüz noyabrın 2-si gündüzədək hava şəraitinin qeyri-sabit keçəcəyi, arabir yağış yağacağı proqnozlaşdırılır. Yağışın bəzi yerlərdə leysan xarakterli intensiv olacağı, yüksək dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Şərq küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu ötən günlərlə müqayisədə tədricən 3-5° enəcək. Çaylarda sululuğun artacağı bildirilir.

# Beynəlxalq aləm

## HADİSƏLƏR, FAKTLAR



### Merkel AFR Kansleri vəzifəsini tərk edəcək

Almaniya Kansleri Angela Merkel yalnız 2021-ci ildə səlahiyyət müddəti bitənədək vəzifəsində qalacaq. Bundan sonra o, ali vəzifəni və hakim Xristian-Demokrat İttifaqı (XDİ) Partiyasının sədri kürsüsünü tərk edəcək. Bu barədə Merkel özü jurnalistlərə məlumat vermişdir.

"Röyter" agentliyinin xəbərinə görə, Merkel XDİ-nin başçısı kimi səlahiyyətlərindən daha tez - bu ilin dekabrında imtina edəcək və qurultay yeni sədr seçəcək.

Kansler vurğulamışdır ki, özünün siyasi fəaliyyətində "yeni səhifə açmağı" lazım bilir. Angela Merkel ilk dəfə 2005-ci ildə Kansler seçilmişdir. XDİ-yə isə o, 2000-ci ildən sədrlik edir.

### ABŞ Meksika ilə sərhədə 5200 hərbçi göndərəcək

ABŞ miqrant karvanının yaxınlaşdığı Meksika ilə sərhədə 5200 hərbçi göndərməyi planlaşdırır. Bu barədə Amerika Silahlı Qüvvələri Şimal komandanlığının rəisi, general Terrens O'Şonessi Pentaqonda jurnalistlər üçün keçirdiyi brifinqdə məlumat vermişdir.



Sərhədçilərə kömək üçün əraziyə həm də helikopterlər və dronlar göndəriləcək. Generalın dediyinə görə, hazırda sərhəddə ABŞ Milli Qvardiyasının 2 mindən çox əsgəri var və oraya daha 800 qvardiyaçı gedir.

Oktyabrın 13-də Qvatemala, Honduras və Salvadordan 7 min nəfərə yaxın adam ABŞ-a üz tutmuşdur. Onların əksəriyyəti Meksikaya qanunsuz gəlmişdir. "Pueblo Sin Fronteras" könüllülər təşkilatının məlumatına görə, miqrantların bir qismi geri qayıtmış, təxminən 1700 nəfər Meksikanın təklifini qəbul edərək orada qalmışdır. Hazırda karvan təxminən 4 min nəfərdən ibarətdir. Miqrantlar Meksikanın Oahaka bələdiyyəsində, ABŞ-la sərhədin bir neçə yüz kilometrliyindədirlər. Bundan əvvəl minlərlə qaçqın Qvatemalanın Tekun-Uman şəhərində sərhədi yarıb Meksikaya keçmək istəmişdir. Nəticədə toqquşmalar baş vermiş və bir miqrant həlak olmuşdur.

### Tunisdə intiharçı qadın partlayış törətdi

Tunisdə baş vermiş partlayış nəticəsində 20 nəfər yaralanmışdır. Bu barədə daxili işlər naziri Hişam Furati məlumat vermişdir.




Furatinin dediyinə görə, yaralılardan 15-i təhlükəsizlik xidmətinin əməkdaşı, 5-i mülki vətəndaşdır. Onların arasında iki uşaq var. Nazir həmçinin qeyd etmişdir ki, hazırda xəstəxanalarda 9 polis əməkdaşı müalicə olunur.

Xatırladaq ki, srağagün Tunisin mərkəzində Həbib Burgibə prospektində intiharçı qadın polis avtomobilinin yaxınlığında özünü partlatmışdır. Onun hicabda olduğu bildirilir.

"Frans Press" agentliyinin xəbərinə görə, asayiş keşikçiləri qadının şəxsiyyətini müəyyənləşdirmişlər.

### Trampın reytinqi 40 faizə düşdü



ABŞ Prezidenti Donald Trampın reytinqi bir həftə ərzində 40 faizə enmişdir. "Gallup" firmasının həftəlik sorğusunun nəticələri buna dəlalət edir.

Oktyabrın 28-də keçirilmiş sonuncu sorğunun nəticələrinə görə, Amerika liderini əhalinin 40 faizi dəstəkləyir. Bu, bir həftə əvvəl, oktyabrın 21-də qeydə alınmış analoji göstəricidən 4 faiz azdır. Dövlət başçısının fəaliyyətini respondentlərin 54 faizi mənfi qiymətləndirmişdir.

Sorğu oktyabrın 22-28-də həddi-büluğa çatmış 1500 amerikalı arasında aparılmışdır.

ABŞ Konqresinə noyabrın 6-da keçiriləcək aralıq seçkilər ölkənin siyasi gələcəyi üçün böyük əhəmiyyət kəsb edir. Bu seçkilər qanunvericilik qərarlarının qəbulu prosesinə təsir göstərməklə yanaşı, parlamentə nəzarətin Demokratlar Partiyasına keçəcəyi təqdirdə hazırkı Prezidentin impiçment proseduruna yol aça bilər.

### İsveçrə Avropanın ən uzunömürlü ölkəsidir

İsveçrə Avropanın ən uzunömürlü ölkələrinə liderlik edir. Bu barədə Avropa İttifaqının Statistika Xidməti (Eurostat) məlumat vermişdir.



İsveçrədə orta ömür 83,7 ildir. İkinci yerdə İspaniya (83,5 il), üçüncü yerdə İtaliya (83,4 il) qərarlaşmışdır. Avropada ən qısa ömür Bolqarıstan, Latviya və Litvada qeydə alınmışdır - 74,9 il.

Bundan əvvəl Sağlamlığın Vəziyyətinin Qiymətləndirilməsi İnstitutu (IHME) 2040-cı il üçün uzunömürlülük reytinqi hazırlamışdır. Burada İspaniya lider olmuşdur. 2040-cı ildə bu ölkədə orta ömrün uzunluğu 85,8 ilə çatacaq.

Mütəxəssislərin fikrincə, uzunömürlüyün səbəblərindən biri pəhrizdir. Bu pəhrizə meyvə, balıq və tərəvəz daxildir. Reytinqdə ikinci yeri Yaponiya (85,7 il), üçüncü yeri İtaliya tutmuşdur. İlk yeddilikdə İsrail, Fransa, Lüksemburq və Avstraliya yer almışdır.

### "Parker" kosmik zondu Günəşin orbitinə yaxınlaşır

ABŞ Milli Aeronavtika və Kosmik Fəzanın Tədqiqi Agentliyinin (NASA) "Parker Solar Probe" kosmik zondu ilə həyata keçirilən "Günəşə toxun!" missiyası uğurla davam edir.



AZƏRTAC BBC-yə istinadla xəbər verir ki, yaxın günlərdə bu zond indiyədək Günəşə hər hansı obyektin yaxınlaşdığı məsafədən daha yaxın olacaq. Hazırda "Parker"in Günəşdən 42,73 milyon kilometr məsafədə olduğu bildirilir. Bundan əvvəlki rekord 1976-cı ildə həyata keçirilmiş "Helios 2" alman-amerikan kosmik missiyasına aid olub (43,2 milyon kilometr). Həmin zondun saniyədə 70 kilometr sürətlə uçuş rekordu da "Parker" tərəfindən yenilənib (saniyədə 190 kilometr). "Parker" kosmik fəzaya bu ilin avqustunda göndərilib. Bu missiyanın əsas məqsədi tarixdə ilk dəfə olaraq Günəşin orbitinə daxil olmaqdır. Kosmik zond, həmçinin Venera planetinə 7 dəfə yaxınlaşacaq ki, bu da onun sürətini saniyədə 200 kilometrə qədər artıracaq. Günəşə ən yaxın məsafəyə isə 2024-cü ilin dekabrında çatmaq mümkün olacaq. "Parker"in ölçüsü kiçik avtomobil qədərdir və 3-D fotoşəkilləri çəkən aparat, elektrik və maqnit sahələrini ölçən cihazla, həmçinin Günəş tacından gələn güclü radiasiya axınını ölçmək üçün xüsusi avadanlıqla təchiz olunub.

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev iqtisadiyyat nazirinin müavini Sevinc Həsənovaya atası

**TELMAN HƏSƏNOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Aqiyə Naxçıvanlı və komitənin üzvləri iqtisadiyyat nazirinin müavini Sevinc Həsənovaya atası

**TELMAN HƏSƏNOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Milli Məclisin deputatı, Azərbaycan Qızıl Aypara Cəmiyyətinin prezidenti Novruzəli Aslanov iqtisadiyyat nazirinin müavini Sevinc Həsənovaya atası

**TELMAN HƏSƏNOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikasının maliyyə naziri Samir Şərifov iqtisadiyyat nazirinin müavini Sevinc Həsənovaya atası

**TELMAN HƏSƏNOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Tarif (qiymət) Şurası Katibliyinin kollektivi iqtisadiyyat nazirinin müavini Sevinc Həsənovaya atası

**TELMAN HƏSƏNOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

"Təmiz Şəhər" Açıq Səhmdar Cəmiyyətinin rəhbərliyi və kollektivi iqtisadiyyat nazirinin müavini Sevinc Həsənovaya atası

**TELMAN HƏSƏNOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"Təmiz Şəhər" Açıq Səhmdar Cəmiyyətinin rəhbərliyi və kollektivi cəmiyyətin şöbə müdiri Rəna Fətullayevaya əzizi

**TELMAN HƏSƏNOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin kollektivi Bakı Şəhəri Səbail Rayon Məhkəməsinin hakimi Nurəddin Bağırova atası

**ABUZƏR BAĞIROVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova və komitənin kollektivi Azərbaycan Dövlət Memarlıq və İnşaat Universitetinin rektoru Gülçöhrə Məmmədovaya əzizi

**ALİM BABAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Mənzil İnşaatı Dövlət Agentliyinin rəhbərliyi və kollektivi iqtisadiyyat nazirinin müavini Sevinc Həsənovaya atası

**TELMAN HƏSƏNOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"Aqrarkredit" Qapalı Səhmdar Cəmiyyəti Bank olmayan Kredit Təşkilatının İdarə Heyəti və kollektivi iqtisadiyyat nazirinin müavini Sevinc Həsənovaya atası

**TELMAN HƏSƏNOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikasının Memarlar İttifaqının İdarə Heyəti, respublikanın əməkdar memarı, Azərbaycan Memarlar İttifaqının İdarə Heyətinin üzvü Nəriman İmaməliyevə anası

**MƏRYƏM XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

YAP Səbail rayon təşkilatının kollektivi təşkilatın İdarə Heyətinin üzvü, Qadınlar Şurasının sədr müavini

**RƏFİQƏ ORUC QIZI MƏMMƏDOVANIN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev və nazirliyin kollektivi iqtisadiyyat nazirinin müavini Sevinc Həsənovaya atası

**TELMAN HƏSƏNOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Prokurorluğunun kollektivi Gəncə şəhər prokuroru Fazil Həsənəliyevə qayınanası

**ŞƏRƏF XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəhbərliyi və kollektivi iqtisadiyyat nazirinin müavini Sevinc Həsənovaya atası

**TELMAN HƏSƏNOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi və kollektivi iqtisadiyyat nazirinin müavini Sevinc Həsənovaya atası

**TELMAN HƏSƏNOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Ərazilərin Bərpası və Yenidən Qurulması üzrə Agentliyin rəhbərliyi və kollektivi iqtisadiyyat nazirinin müavini Sevinc Həsənovaya atası

**TELMAN HƏSƏNOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Qazax Xeyriyyə İctimai Birliyinin İdarə Heyətindən İlham Pirməmmədov, Teymur Bünyadov, Nəriman Həsənzadə, Nizami Cəfərov və İdarə Heyətinin digər üzvləri Bakı Dövlət Universiteti Azərbaycan ədəbiyyatı kafedrasının müəllimi Məti Osmanoğluna anası

**GÜLƏSƏR XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bakı Şəhəri Səbail Rayon Məhkəməsinin sədri Ağamalı Qafarov və məhkəmənin kollektivi məhkəmənin hakimi Nurəddin Bağırova atası

**ABUZƏR BAĞIROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az_reklam@azeronline.com
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60,
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 8408
Sifariş 3194